Rəna Qurbanlı Qılıcova

# Sətirlərə sığınan hisslər

Bakı - 2026

**Redaktor:** **Nəcibə İlkin**
*Şair-publisist, yazıçı, AYB-nin, AJB-nin, Dünya Türk Yazarlar Birliyinin, İraq-Türkmən Ədəbiyyatı Birliyinin üzvü, Prezident mükafatçısı, İctimai xadim*

***Rəna Qurbanlı Qılıcova,***
***"Sətirlərə sığınan hisslər"***
***Bakı, «İMZA» nəşrlər evi, 2026, 208 səh***

**İSBN 978-9952-37-440-1**

© *Rəna Qurbanlı Qılıcova* - **2026**

# Sözün qadın taleyi, yaxud ruhdan doğan poeziya

Qadın qələmindən süzülən söz, sadəcə misra deyil - duyğunun nəfəsi, yaddaşın səsi, taleyin pıçıltısıdır. Bu kitabda toplanan şeirlər bir şair qadının daxili aləminin güzgüsüdür: sevinc və kədərin, ümid və sükutun, inam və tənhalığın poetik etirafıdır.

Rəna Qurbanlı Qılıcova. Ədəbi aləmdə öz dəsti-xətti ilə sevilən və seçilən şairə xanım. Mənim də çox sevdiyim və şəxsiyyətinə, yaradıcılığıa hörmət bəslədiyim qadın. Elə şeirlərində qadına verdiyi dəyər buna əyani sübutdur ki, qadının kim olduğunu söz-söz, misra-misra ruhun yaddaşına köçürür;

*Bəzən dəniz kimi coşub, çağlayır,*
*Dünyanın yükünü çəkəndir qadın!*
*Bəzən için-için, gizli ağlayır,*
*Hər sirri qəlbinə əkəndir qadın!*

***

*Hər biri evinin mərd sonasıdır,*
*İşiylə tarixə yazdırır adın.*
*Onlar şəhidlərin öz anasıdır,*
*Evlərin dirəyi qadındır, qadın!*

Rəna xanım Qurbanlını uzun müddətdir tanıyram. Onun məhsuldar yaradıcılığı müxtəlif məzmun və mövzularla dolu bir aləmdir. Yaradıcılığında qadın duyğusunun zərifliyi ilə düşüncənin müdrikliyi ahəngdar şəkildə qovuşur. Müəllif olaraq sözü bəzək üçün deyil, həqiqəti demək üçün seçir. Hər misrada həyatın acı-şirin dadı, za-

manın izləri, insan ruhunun sınmayan tərəfi duyulur. Bu mənada onun poetik duyğuları mənəvi zənginliyinin həyat duyarlığıdır.

VƏTƏN! Bu söz onun aləmində başqa cür səslənir. Bu səsdə haray var, həqiqət var. Vətən sevgisinə geniş yol var, o yollarda şəhid olmaq, o yollarda şəhid anası olmaq kimi şərəfli hisslər var.

Onun vətən sevgisi vətən şeirlərində bir ana laylası qədər əziz, bir vətən əsgəri qədər müqəddəsliyinə yan alır. Bu müqəddəslik mənəvi hisslərinin dünyəvi duyğularında tüğyan edir. Vətən- Ana -Şəhid-Zəfər kimi müqəddəs hissləri şeirin poetik gözəlliyində elə cilalayır ki, hiss edirsən ki, bu gözəllik onun mənəvi dünyasının hakim olduğu bir varlığıdır:

***Ey gözəl vətənim, dik tut başını,***
***Qalibik, fəxr elə qalib sözündən.***
***Bir daha ağlama, sil göz yaşını,***
***Qoy sevinc yaşları gəlsin gözündən.***

***

***Hər ovuc torpaqda var şəhid qanı,***
***Şərəfli bir yolu keçdi, şəhidlər!***
***Vətənin uğrunda verdilər canı,***
***Ürəkdən bu yolu seçdi, şəhidlər.***

Rəna xanımın yaradıcılığının ideya-estetik təməlində milli düşüncə sistemi dayanır. Şairənin poeziyası fərdi hisslərin ifadəsi olmaqdan çıxaraq, xalqın tarixi yaddaşı, mədəni şüuru və mənəvi dəyərlər sistemi ilə üzvi şəkildə qovuşur. Burada söz təkcə estetik kateqoriya deyil, həm də milli varlığın qorunma və ötürülmə vasitəsidir.

Onun şeirlərində Ana- Vətən anlayışı sadəcə bir coğrafi məkan deyil, şairin ruhunda doğulan, qəlbində böyüyən müqəddəs bir varlıqıdır.  O, ana kimi  sözü doğurur, böyüdür, qoruyur və bəzən də övladından can bahasına sədaqət istəyir. Şair üçün Vətən torpaqdan əvvəl taleyin adıdır, yaddaşın səsidir, qanla yazılmış tarixdir.

***İgiddir hər övladı,***
***Qalib ölkədir adı.***
***Həsəd aparır görən.***
***Ən gözəl yerdir vətən!***

Ana - Vətən mövzusu poeziyada ən ülvi hisslərin cəmləndiyi  mənəvi zirvədir. Burda torpağın hər qarışı bir xatirə, hər daşı bir şəhid nəfəsi, hər çayı bir ananın göz yaşıdır. Şair Vətəni təkcə sevmir, sadəcə onu duyur, yaşayır, ağrısını öz ürəyində daşıyır. Vətən şeirə çevriləndə, misralar bayrağa bənzəyir, sözlər and kimi səslənir.

Bu mövzuda yazılan şeirlərdə Vətən çox vaxt ana obrazında təcəssüm edir; səbirli, məğrur, yaralı, amma suqunluğu min fəryaddan ağır. Şair bu ananın qarşısında borcludur – sözü ilə, nəfəsi ilə, bəzən də canı ilə.

Ana Vətən həm fəxarət, həm həsrət, həm də ümiddir. İşğalın acısı misralara qara kölgə salır, azadlıq arzusu isə şeiri işıqlandırır. Bu şeirlərdə torpaq danışır, tarix söz alır, gələcək dua edir. Onun vətən, ana haqqında yazdığı hər sətir milli yaddaşın bir səhifəsində çevrilir.

***Bir gün baxacaqsan bütün hər yana,***
***Bir kədər düşəcək o şirin cana,***
***Onda deyəcəksən, hardasan ana?***
***Dünya bir yanadır, sən də bir yana.***

Rəna xanımın Ana - Vətən mövzusu xalq arasında qurulan mənəvi körpüdür. Bu körpüdən keçən sözlər zamanın sərhədlərini aşır, nəsilləri birləşdirir və Vətən- Ana təkcə yazılarda, xəritələrdə deyil, ürəklərdə əbədi olaraq özünə yer edir.

***Qapının önünə çatdığım zaman***
***Yadıma düşdü ki, evdə yoxsan sən.***
***Bu dünya başıma fırlandı inan,***
***Kədərlə qapıdan geri döndüm mən.***

Rəna xanımın poetik dili səmimi və aydındır. O, oxucunu uzaq fəlsəfi labirintlərdə itirmir, əksinə, gündəlik həyatın içindən süzülən duyğuları bədii sözün nuruna çevirir. Onun misralarında ana laylasının istiliyi, vətən torpağının qoxusu, qadın taleyinin səssiz harayı yaşayır.

Bu yaradıcılıq oxucuya hazır həqiqətlər təqdim etmir; düşünməyə, hiss etməyə, öz daxilinə baxmağa dəvət edir. Çünki əsl poeziya sual doğurur, cavab yox. Bu ön sözlə oxucunu bir şairə qadının söz dünyasına dəvət edirik — zərif, amma möhkəm; sakit, amma dərin; kövrək, amma işıqlı bir dünyaya.

***Elə bil saatdan asılıbdı daş,***
***Bürüyüb hər yeri kədər, qəm necə?***
***Bulaq tək süzülür gözlərimdən yaş,***
***Çox sirli görünür mənə bu gecə.***

Onun poeziyasında zaman yalnız xronoloji ölçü deyil, insan şüurunun sınaq meydanıdır. Rəna Qurbanlı üçün keçmiş xatirə, gələcək isə sadə arzu deyil — hər ikisi indi-

nin içində yaşayan mənəvi haldır. Onun misralarında insan öz taleyinin müşahidəçisi olmaqla yanaşı, həm də onu dəyişməyə cəhd edən varlıq kimi təqdim olunur. Burada söz, düşüncənin kölgəsi yox, düşüncənin özüdür.

Rəna xanım varoluşun suallarına qışqırmadan, səssizcə toxunur. O, həyatın mənasını böyük iddialarla deyil, kiçik detalların hikməti ilə açmağa çalışır: susqun baxışda, yarımçıq cümlədə, deyilməmiş etirafda. Bu baxımdan onun poeziyası ekzistensial bir etirafdır — insanın özü ilə üz-üzə qalma anlarının poetik salnaməsi.

***İnsan ömrü sanki sirli saraydı,***
***Talelər yazılır ağlı, qaralı.***
***Bəxtləri onlara verilmiş paydı,***
***Kimi ağ günlüdür, kimi yaralı.***

***

***Yolumu salmışdım qəbirsanlığa,***
***Daşlardan cürbəcür adam baxırdı.***
***Özümü itirdim lap bir anlığa,***
***Gözümdən sinəmə yaşlar axırdı.***

Burada qadın kimliyi yalnız bioloji və ya sosial çərçivədə deyil, ontoloji mahiyyətdə təqdim olunur. Qadın — yaradıcı başlanğıc, səbir və dirənişin sintezidir. Şairənin misralarında qadın taleyi qurbanlıq deyil, dərk edən və dərinləşdirən bir şüur kimi görünür. O, ağrını zəiflik deyil, idrak mərhələsi kimi yaşayır.

Rəna Qurbanlı milli fəlsəfənin əsas dayaqları olan torpaq, yaddaş, dil və mənəviyyat anlayışlarını poetik diskursun mərkəzinə çəkir. Torpaq onun şeirlərində coğrafi məkan deyil, ontoloji başlanğıcdır — insanın kimliyini

müəyyən edən ilkin mənbədir. Yaddaş fərdi xatirə səviyyəsindən çıxaraq kollektiv şüurun daşıyıcısına çevrilir; dil isə sadəcə ünsiyyət vasitəsi yox, milli ruhun semantik kodu kimi təqdim olunur.

Rəna Qurbanlının sevgi şeirlərində sevginin ucalığı, sədaqəti, etibarı, inamı ulduz kimi yanır, nuru söz dünyasının təməlində boy atır. O, bu boy atmada oxucunu mənəvi dünyasının işığına qərq edir.

***Həmişə adını sevgiylə andım.***
***Lazımdır sevginin qədrini bilmək.***
***Özümü dünyanın xoşbəxti sandım,***
***Hər zaman gözəldi sevib - sevilmək.***

Bu poeziyada sevgi yalnız bir hiss deyil — o, mənəvi dayaq, varlığın mənası, insanı ucaldan bir qüvvə kimi təqdim olunur.

Rəna xanımın yaradıcılığında sevgi xüsusi yer tutur. Çünki sevgi, bəzən sözdən daha çox həqiqət daşıyır. O, susaraq danışmağı, demədən anlatmağı bacarır. Onun poetik fəlsəfəsində insanın kamilliyi cavab tapmaqda yox, sual verməyi bacarmaqdadır.

***Kölgə tək arxamca hey sürünürsən,***
***Şimşək tək başımın üstə çaxırsan.***
***Gəzdiyim hər yerdə sən görünürsən,***
***Həmişə gizlicə mənə baxırsan.***

Bu baxımdan bu poeziyada milli-fəlsəfi sintez aydın müşahidə edilir: şairə klassik Şərq düşüncə ənənəsinin - mənəvi-estetik irsini müasir poetik təfəkkürlə birləşdirir.

İnsanın kamilləşmə ideyası, mənəvi məsuliyyət anlayışı və haqq-ədalət duyğusu bu yaradıcılıqda mərkəzi fəlsəfi kateqoriyalar kimi çıxış edir.

***Həsrətlə baxıram getdiyin yola,***
***Getdiyin yollara dikilib gözüm.***
***Boylanıb gəzirəm mən sağa-sola,***
***Səni gözləyirəm yenə də özüm.***

Beləliklə, bu poeziya oxucunu yalnız estetik zövqə deyil, daxili oyanışa çağırır. Bu misralar oxunmur — yaşanır. Çünki burada söz, ruhun özünə qayıdış yoludur.

Qadın kimliyi milli fəlsəfi kontekstdə mənəvi varislik funksiyasını daşıyır. Şairənin poetik subyekti qadını təkcə ailə və cəmiyyət çərçivəsində deyil, milli dəyərlərin qoruyucusu, mədəni yaddaşın daşıyıcısı kimi təqdim edir. Bu baxımdan onun yaradıcılığı milli özünüdərk prosesinə xidmət edən estetik-fəlsəfi mətnlər sistemi kimi dəyərləndirilə bilər.

Metodoloji baxımdan Rəna Qurbanlının dili sadə leksik quruluşla dərin semantik qatlar yaradır. Bu, milli poeziyada mühüm olan aydınlıq və hikmət vəhdətini təmin edir. Onun şeirlərində metafora düşüncəni gizlətmir, əksinə, onu açır; obrazlar estetik yüklə yanaşı, fəlsəfi məna daşıyır. Həm də üslub cəhətdən a.b; a.b.sistematik quruluşa xüsusi nəzarət edir. Bu isə şairin nə qədər mükəmməl olduğunu sübut edir.

***Yaşının üstünə gələcək yaşın,***
***Nə qədər başıma mən qoysam həna.***
***Başına dən düşüb, ağarar bası,***
***Görərsən qocalır sizin bu Rəna.***

Bu bənddə aydın fikirlə izah etmək olar. Birinci misra ilə üçüncü misranın, ikinci misra ilə dördüncü misranın həmqafiyə olması, qafiyə sisteminin klassik cəhətdən gözlənilməsi aydın görünür. Müasir ədəbi aləmdə belə yazan şair demək olar ki, çox azdı, bəlkə də yoxdur. Onlar yalnız ikinci misra ilə dördüncünün həmqafiyə olmasına yalnız şərait yarada bilirlər. Rəna xanım isə heç kəsə bənzəməyən və fərqli olaraq klassik ənənə şeir üslubunu ortaya qoyur.

Rəna xanımın yazdığı poema – "Sirli ölüm" bu zamanın və onun ağrılarının acı nəticəsini ortaya qoyur.

**"Sirli ölüm"** poeması zahirən bir ölüm hadisəsindən bəhs etsə də, əslində insan ruhunun, cəmiyyətin vicdanının və taleyin qaranlıq qatlarının poetik açarıdır. Müəllif bu əsərdə ölümü fiziki son kimi deyil, sirli bir həqiqət, danışa bilməyən bir fəlsəfə kimi təqdim edir. Mövzu baxımından əhatəli, obrazlılıq baxımından isə maraqlı bir əsər olmaqla bu günümüzün ağrılarını özündə əks etdirir.

Poemada "ölüm" obrazı susan bir varlıqdır, lakin onun sükutu hayqırışdan daha təsirlidir. Bu susqunluq oxucunu düşündürür:

— O niyə öldü?

— Kim öldürdü?

— Yoxsa onu zaman, laqeydlik, haqsızlıq öldürdü?

Rəna xanımın poetik dili yumşaq olduğu qədər də ağrılıdır. Misralar sanki qaranlıq bir otaqda yanan zəif şam işığı kimidir – həm işıq verir, həm də kölgələri daha aydın göstərir. Burada ölüm romantikləşdirilmir, əksinə, sirli və suallarla dolu bir həqiqət kimi təqdim olunur.

Əsərin əsas bədii gücü metaforik düşüncə sistemindədir. "Sirli ölüm" konkret bir insan yox, bəzən; cəmiyyətin içində diri-diri ölən vicdandır, unudulan məhəbbətdir,

tapdalanan qadın taleyidir, susdurulan həqiqətdir.

Müəllifin bir şair kimi dünyagörüşü bu poemada açıq hiss olunur: o, ölümü də danışdırır, susqunluğu da mətnə çevirir. Qadın duyğusallığı ilə fəlsəfi düşüncə burada vəhdət təşkil edir. Bu, əsərə həm emosional dərinlik, həm də intellektual yük qazandırır.

**"Sirli ölüm" oxucuya cavab vermir –** onu suala çəkir. Poemanın ən böyük uğuru da budur: oxucu mətni bitirəndə rahatlanmır, əksinə, daxilində bir narahatlıq yaranır. Bu isə artıq bədii qələbədir. Çünki böyük poeziya rahatlıq yox, oyanış yaradır.

Nəticə olaraq demək olar ki, "Sirli ölüm" poeması - həm simvolik, həm fəlsəfi, həm də dərin psixoloji qatlara malik bir əsərdir.

Bu poema sübut edir ki, şair qadın yalnız hisslərin yox, sirli həqiqətlərin də tərcüməçisidir.

Nəticə etibarilə, Rəna Qurbanlının yaradıcılığı milli-fəlsəfi düşüncənin müasir poetik ifadəsidir. O, oxucunu milli yaddaşa söykənən mənəvi özünütəhlilə çağırır və poeziyanı bir sənət hadisəsi olmaqla yanaşı, milli şüurun davamlılığına xidmət edən intellektual məkan kimi təqdim edir.

Mən Rəna Qurbanlının hər misrasında dərin və geniş ürək gördüm. O ürək ki, safdır, təmizdir, çiçək kimi ətirli, günəş kimi nurludur. Bu nurun hər misrada parlaq görünməsi vəürəklərə yol açması aydın görünür. O, hər kəsi düşünür, hər kəsə doğru və düzgün fikirləriylə həmdəm olmağa çalışır. Bu onun xalqına, millətinə olan sevgisinin bariz nümunəsidir.

**Nəcibə İlkin**

## Ali Baş Komandan deyir

Ali Baş Komandan deyir irəli!
Var bizim ordumuz, əsgərlərimiz.
Biz azad eyləyək bütün yerləri,
Onlarla fəxr edir bütün cümləmiz.

Qarabağ bizimdir! Söyləyir nida!
Erməni düşübdü indi zillətə.
Düşmən Qarabağa desin əlvida,
Çox əzab verdilər bizim millətə.

Qanıyla tarixi yazan əsgərlər,
Vətənin yolunda onlar verdi can.
Düşmənə quyunu qazan əsgərlər,
Onlarla fəxr edir bütün hər insan.

Erməni düşübdü indi zillətə,
Mənim torpağımda davalar gedir.
Hay çəkib söyləyir bütün millətə.
Bunların hamsını Əliyev edir.

Ölmək istəmirsə əgər erməni,
Təcili tərk etsin bizim vətəni.
Onların yerində yoxdur gözümüz,
Biz düşmən qovuruq ancaq özümüz.

## Azərbaycan

Aləmə yayılıb şöhrəti-şanı,
Dünyaya səs salıb buz bulaqları.
Bu dünya tanıyır Azərbaycanı,
Məhşurdu hər yanda göy yaylaqları.

Üç rəngli bayrağı zirvələrdədir,
Yetirib nə qədər igid, qəhrəman.
Şöhrəti yayılıb, hər yerlərdədir,
Onlarla fəxr edir bu Azərbaycan!

Zəfərlə tanınır hey Azərbaycan,
Qurbandır vətənə bu şirin canım.
Dağ çəkir düşmənə, verməyir aman,
Dillərdə dastandı Azərbaycanım.

Qələbə biİmdir, zəfər bizimdir,
Ürəyim su içir bu qələbədən.
Məni dik saxlayan polad dizimdir,
Duyuram hər şeyi mən əvvəlcədən.

Dillərdə olacaq yenə də dastan,
Addımla irəli, ey Azərbaycan!
Söyləyib dedir ki, prezident hər an,
Qarabağ özüdür bu Azərbaycan!

## Qələbə hissi

Qələbə, qələbə söyləyir hamı!
Qələbə qazandıq artıq özümüz.
Xoş hislər bürüyür bütün adamı,
Millət, aydın olsun indi gözümüz!

Ali Baş Komandan bir tarix yazdı,
Bütün torpaqları geriyə aldıq.
Erməni yolunu azdıqca, azdı,
Bu gün biz böyük bir qələbə çaldıq.

Bayramı ürəklə qeyd edir hamı,
Yollara düzülüb çalıb-oxuyan.
Cuşa gəlib bu gün xalqın ilhamı,
Qalmayıbdı evdə bir nəfər insan.

## Zəfərdir, bu dadın adı

Zəfərdir, zəfərdir bu dadın adı!
Şəhidlər yaşatdı bizə bu anı.
Necə də gözəldir dadmaq bu dadı,
Azad eylədilər Azərbaycanı.

Hər ovuc torpaqda var şəhid qanı,
Şərəfli bir yolu keçdi, şəhidlər!
Vətənin uğrunda verdilər canı,
Ürəkdən bu yolu seçdi, şəhidlər.

Gedərkən bayrağı öpüb getdilər,
Bu günü özləri ancaq görmədi.
İgidtək vətənə xidmət etdilər,
Onlar yaşayırlar, onlar ölmədi.

Öpdüyü bayrağı oldu kəfəni,
Dadmadı özləri zəfər dadını.
Canıyla qorudu onlar vətəni,
Ömürlük tarixə yazdı adını!

## Qələbə budu

Canlanır Qarabağ, sevinir vətən,
Tarixi bir gündür, zəfər çalmışıq.
Uğrunda nə qədər var ölən, itən,
Şuşanı düşməndən geri almışıq.

Şuşada çox gözəl şənlik quruldu,
Yoxuydu sevincin həddi-hüdudu.
Tarixə zəfərin möhrü vuruldu,
Prezident söylədi: Qələbə budur!

Düşmənə dağ çəkdi həmin o şənlik,
Onlarda qalmadı qürur, nə mənlik.
Cıdırda o yallı gedən Paşinyan,
Festifal günündə ölmüşdü inan.

Bütün şəhidlərin ruhu olsun şad!
Bu günü borcluyuq şəhidlərə biz.
Qarabağ olacaq yenə də abad,
Baş əyir önündə cəmi cümləmiz.

## Şəhidlər

Yenə külək əsir qəmlə, kədərlə,
Göyün üzərini buludlar aldı.
Barışa bilmirəm belə qədərlə,
Səhidlər hər yana səs-səda saldı.

Torpağa çiləndi al-qırmızı qan,
Duysun ana torpaq, eşitsin vətən.
Vətənin uğrunda getdi neçə can,
Şəhid ola bilməz hər yoldan ötən.

Ən yüksək zirvədir, şəhid zirvəsi,
Başını sən dik tut, ey Azərbaycan!
Qəbul etməz ora hər yetən kəsi,
Yaddaşdan silinməz onlar heç zaman.

Şəhidlər düşmənə qəbir qazdılar,
Düşmənin köksünü oydu, şəhidlər!
Ömürlük yeni bir tarix yazdılar,
Tarixə imzasın qoydu, şəhidlər!

## Zəfər bayramı

Ey gözəl vətənim, Azərbaycanım!
Səninlə fəxr edir, duyuruq qürur.
Sənə qurban olsun mənim bu canım,
Zəfər sevinciylə qəlbimiz vurur.

Savaşı qazandıq, qələbə çaldıq,
Bu yolda igidlər qoydu canını.
Düşməni yurdundan didərgin saldıq,
Vətənin uğrunda tökdü qanını.

Hər ovuc torpaqda var şəhid qanı,
Onlara borcluyuq bütün hər anı.
Çox xoşdur vətənin abu-havası,
Vətənim geyinib bayram libası.

Zəfər libasını bicdi şəhidlər,
Zəfər bayramınız mübarək olsun!
Şərəfli bir yolu keçdi ki, onlar-
Bütün hər bir evə müjdələr dolsun.

# Qələbə sevinci

Ey gözəl vətənim, dik tut başını,
Qalibik, fəxr elə qalib sözündən.
Bir daha ağlama, sil göz yaşını.
Qoy sevinc yaşları gəlsin gözündən.

Noyabr ayının gəlir səkkizi,
Artıq bütov olub Azərbaycanım.
Qələbə sevinci coşdurur bizi,
İndi rahatlaşıb mənim vicdanım.

Ancaq şəhid verdik düz üç min nəfər,
Qələbə şəhidsiz olmayır heç vaxt.
Biz qalib olmuşuq, calmışıq zəfər,
Şəhidə qurulur ən yüksəkdə taxt.

Bu gün toy, bayramdı mənim elimdə,
Tökülür gözümdən sevinc yaşları.
Titrəyir qələmim bu an əlimdə,
Dəmlənir evlərdə bayram aşları.

Sevinir el-oba, bütün vətənim,
Qələbə sevinci yaşadıq o an.
İgidlər düşmənə oldular qənim,
Bütövləşib indi can Azərbaycan!

## Qələbə sevinci yaşadıq

Qələbə hissini yaşadıq canlı,
Halaldır ordumun əsgərlərinə.
Ordumuz döyüşdü şərəfli-şanlı,
Heç zaval gəlməsin qoy əllərinə.

Rəşadət göstərib, zəfər çaldılar,
Qurbanam hamsının bir-bir canına.
Bu günü tarixə onlar saldılar,
Qurbanam su kimi axan qanına.

Nə gözəl bir hisdir yaşadıq indi,
Çəkildi yurdumdan düşmən ayağı.
Qalmadı bir nəfər, hamı sevindi,
Xalq oldu ordunun əsas dayağı.

Olduqca xoşbəxtik həmin zamanda,
Bütövləşdi bizim bax xəritəmiz.
Qələbə qazandıq, cünki bu anda,
Qələbə sevinci yaşayırıq biz.

## Şəhidlər seçilib

Boyları ucadır, eyni biçilib,
Gözündən elə bil damılır ağıl.
Allahım, şəhidlər sanki seçilib,
Şəhidin taleyi sanki bir nağıl.

Fəxr edək onların hər bir halından,
Şəhidlər seçilib sanki mələkdir!
Baxdıqca doymursan gül camalından,
Onlar sinəmizdə vuran ürəkdir!

Hamının qəlbində saray qurdular,
Ən yüksək zirvədir şəhidin yeri.
Qanıyla tarixə möhür vurdular,
Cənnəti qazandı onun hər biri.

Düşmənin önündə dimdik durdular,
Polad biləklidi şəhidlərimiz!
Tarixə əbədi möhür vurdular,
Aslan ürəklidi şəhidlərimiz!

## Məzar qismət olmadı

Dağı dağ üstünə qoydu, şəhidlər,
Hər biri seçilmiş mərd bir oğuldu.
Düşmənin köksünü oydu, şəhidlər!
Vətəni qorumaq üçün doğuldu.

Bütün torpaqları azad etdilər,
Şərəflə dünyadan köçüb getdilər.
Kimisi itirdi iki gözünü,
Heç görə bilmədi hətta özünü.

Nə qədər zülümlər gördülər belə,
Bəzisi bir ovuc külə dönmüşdü.
Kiminin tikəsi gəlmədi ələ,
Kimisi soyuqdan dönub ölmüşdü.

Onların heç bir vaxt yeri dolmadı,
Şəhidlər bizlərə bəxş etdi nəfəs.
Kimsinə məzar da qismət olmadı,
Heç zaman unutmaz onları bir kəs.

## Şəhidlər

Şəhidlər bir tarix yazdılar düzgün,
Düşməndən torpağı geri aldılar.
Bizimçün ən əziz bir gündür bu gün,
İgidlər tarixdə yadda qaldılar.

Qanıyla torpağı yuyan, şəhidlər,
Ömürlük bu günü borcluyuq sizə.
Düşmənin köksünü oyan şəhidlər!
Ən böyük sevinci bəxş etdiz bizə.

Şərəfli bir yolu keçən, şəhidlər!
Unuda bilmərik biz sizi inan.
Şəhidlik taxtını seçən, şəhidlər!
O günlər geriyə dönməsin aman.

Nə qədər kecsə də aradan zaman,
Analar axtarır oğlunu hər an.
Bir-birindən əziz olub, şəhidlər!
Hər kəsin qəlbinə dolub, şəhidlər!

## Xatirələrim

Acılı, şirinli xatirələrim,
Qaytarın siz məni köhnə anlara.
Sizləri axtarır hər an gözlərim,
Boylanım hər yerə, bütün yanlara.

Quş kimi siz tezcə alıb götürün,
Qaytarın siz məni həmin çağlara.
Uşaqlıq dövrümə məni ötürün.
Oynayıb, gəzdiyim güllü bağlara.

Əlimə alaydım yenə səbəti,
Toplayıb yığaydım çiyələkləri.
Bostana girəydim gizli, xəlbəti,
Dağıdıb qaçaydım xırda ləkləri.

Quşları qovaydım öz qəfəsindən,
Bağçanı tamamən alt-üst edəydim.
Qorxaydım anamın titrək səsindən,
Sonra da xəlvətcə çıxıb gedəydim.

Guya ki, heç nədən yoxdu xəbərim,
Başıma dərd olub ötən gəncliyim.
Günahkar gəzəydi yenə gözlərim,
Onda da olmayıb bir an dincliyim.
Ay mənim sürətlə ötən illərim,
Sizlərdə qalıbdır xatirələrim.

## Qoyma kül etsin

Baxışın od saldı şirin canıma,
Bu atəş bürüdü bütün cismimi.
Qığılcım ələndi sanki qanıma,
Yadımdan çıxartdı mənə ismimi.

Günəşli gündüzüm olubdu qara,
Bilmirəm nə edim, mən getsəm hara?
Baxışın sinəmdə açıbdı yara,
Xəyallar içində düşürəm dara.

Gözlərin qəlbimi yandırıb, yaxdı,
Bağladı baxışlar məni özünə.
Sanki bu könlümə bir sevgi taxdı,
Mən baxa biımədim artıq gözünə.

Bir də görəcəksən yanıb kül oldum,
Gözlərim hər yerdə axrarır səni.
Ətirli gülüydüm, açmadan soldum,
Qoyma bu məhəbbət kül etsin məni.

## Bir güldür qadın

Taleyi üzündən oxunan qadın.
Saçına dən düşüb ağarıb basin.
Libası kədərdən toxunan qadın,
Üzündə iz salıb tökülən yaşın.

Dünyanın yükünü yığdın belinə,
Əllərin olubdu bax qabar-qabar.
Zəhmətin iz salıb zərif əlinə,
Gözündə dünyanın qəm, kədəri var.

Həmişə odlara yanandır qadın!
Vəfalı olurlar onlar hər zaman.
Həm də ki, ən gözəl canandır qadın,
Dağı dağ üstünə qoyarlar inan!

Qadındır evlərin yanan ocağı.
Övladın üstündə əsəndir qadın!
İsidər hər bir an küncü, bucağı,
Ən incə bir güldür, süsəndir qadın!

## Qadınlar

Hər şeydən gözəlsən dünyada, qadın,
Yaxşı ki, gəlmisiz siz bu cahana.
Şərəflə çəkilir hər yerdə adın,
Sizi də dünyaya gətirib ana.

Bəzən dəniz kimi coşub, çağlayır,
Dünyanın yükünü çəkəndir qadın!
Bəzən için-için, gizli ağlayır,
Hər sirri qəlbinə əkəndir qadın!

Bişirdiyi yemək olur çox ləziz,
Hər evdə şam kimi yanır qadınlar.
Vətən onlar üçün əzizdir, əziz.
Vətəni müqəddəs sanır qadınlar.

Hər şeyi vətənə qurban edirlər,
Dünyanı mələk tək sevəndi qadın.
Cəbhəyə əsgərlə birgə gedirlər.
Həmişə özünə güvəndi qadın.

Hər yerə yayılır səsi-sədası.
Evini müqəddəs sanandı qadın.
Gözəldir işvəsi, nazı, ədası,
Bax onun biri də anandı, qadın.

## Qadındır, qadın

Ən böyük qüvvədir həyatda qadın,
Dərdləri ürəyə salandı qadın.
Zəhmətlə ucaldır həmişə adın,
Düşməndən öcünü alandı qadın.

Gecə də, gündüz də onlar çalışır,
Kədəri qəlbinə əkəndi qadın.
Bütün çətinliyə hər an alışır,
Zəhmətlə sevinci biçəndi qadın.

Kişidən qalmayır bir addım geri,
Nə qədər olsalar bax onlar qoca.
Düşmənə verməzlər bir qarış yeri,
Zəhməti tuturlar hər şeydən uca.

Hər biri evinin mərd sonasıdır,
İşiylə tarixə yazdırır adın.
Onlar şəhidlərin öz anasıdır,
Evlərin dirəyi qadındır, qadın!

## Qadın

Evlərin bəzəyi qadındır, qadın!
Ən gözəl çiçəkdir, güldür qadınlar.
Qəlblərə yazılır, ey qadın, adın!
Dərdlinin dərdini onlar tez anlar.

Həniri isidir evi-eşiyi,
Olmayır onların gecə-gündüzü.
Həmişə çəkirlər övlad keşiyi,
Kədərdən gülməyir bəzən də üzü.

Zəhmətlə çalışıb hey ev qururlar,
Dərdləri qəlbinə salandı qadın.
Ən çətin işlərə möhür vururlar.
Hər yükü çiyninə alandı qadın.

Gündüzlər bənzəyir onlar günəşə,
Hamının dərdinə yanandı qadın.
Gecələr nur salır ay tək həmişə,
Yarına ən gözəl canandı qadın.

## Qadını anlamaq niyə cətindir

Hər kəsi dünyaya gətirib qadın.
Bəsləyib, böyüdüb, qoyubdu adın.
Doqquz ay bətnində səni yetirən,
Əzabla dünyaya doğub gətirən,
Xanımdır, anadır, o, bir qadındır.
Namusun, şərəfin, həm də adındır.
Qadının ürəyi coşan dənizdir,
Evində həm xanım, həm də kənizdir.
Qadındır, qeydinə qalan o, bacı.
Bir gilə sevgiyə var ehtiyacı.
Onlar əzəmətli, həm də mətindir.
Qadını anlamaq niyə çətindir?
Xəsislik etməyin onu sevəndə.
Sonra anlamıram deməyin mən də.
Onları anlaya bilməsən əgər,
Günahı özündə bir axtar deyər.

## Əlindən tuta biləydim

Doyunca qoy baxım gül camalına,
Bələdəm mən sənin hər bir halına.
Tellərin tökülüb geniş alnına,
Bircə yol əlindən tuta biləydim.

Vuruldum mən sənin qara gözünə,
Möhtacam bir dənə şirin sözünə,
Yaradan yazaydı məni özünə,
Bircə yol əlindən tuta biləydim.

Baxışın od salıb bil, ürəyimə,
Allahım gələydi tez köməyimə,
Rəhm elə çəkdiyim bu əməyimə,
Bircə yol əlindən tuta biləydim.

O necə baxışdı, sən mənə baxdın?
Sanki ürəyimə bir xəncər taxdın,
Bu kövrək qəlbimi yandırıb yaxdın,
Bircə yol əlindən tuta biləydim.

## Eşq sarayı

Bəzədim qəlbimdə öz sarayımı,
Udmuşam verdiyin ağrı-acımı.
Aləmlə bir etdim eşq harayımı,
Qurmuşam sarayda taxtı - tacımı.

Qoy duysun bu cahan kimin yarısan?
Eşqin ürəyimdə məskən salıbdır.
Bilsinlər, qəlbimin hökümdarısan,
Gözlərin özümü məndən alıbdır.

Gəl eşit qəlbimin sən harayını,
Düşməsin saraydan bir kərpic aman.
Birlikdə qoruyaq eşq sarayını,
Eşqimiz yox olar elə həmin an.

Təsəvvür edirəm bircə anlığa,
Çiçəklər açsın qoy eşq sarayında.
Bu saray dönməsin qəbirsanlığa,
Məhəbbət yaşasın ürək payında.

## Axı siz anasız

İmtina etməyin övladınızdan,
Axı siz anasız, anasız axı.
Utanın anatək öz adınızdan,
Tutacaq sizləri onların ahı.

Heç kimə etibar etmə onları,
Bilinməz heç necə olar sonları,
Özün yeyirsənsə soğanla çörək,
Onlarla birlikdə yeməyin gərək.

Özləri özünü aldadacaqdır,
Çünki anaları var yanlarında.
O zaman o soğan bal dadacaqdır,
Sənin qanın axır damarlarında.

Verməyin onları siz yad əllərə,
Onlara yedirtsən nə qədər bal, yağ,
O zaman gedərlər eldən - ellərə,
Dərdləri qəlbində olacaq bir dağ.

Qoy sizlə yesinlər pendirlə, çörək,
Verməyin onları uşaq evinə.
Sizinlə birlikdə olması gərək,
Sizlərlə birlikdə qoyun sevinə.

## Ömür necə keçir

Bilmirsən bu ömür heç necə keçir,
Baxmayır qocaya, nə də cavana.
Əzrayıl hər gündə adamlar seçir,
Yazığı gəlməyir heç vaxt insana.

Hər kəsə əl qoyur, bir- bir götürür,
Artıq insan deyil, onlar olur daş.
Sonra məzarlığa onu ötürür,
Daşdan boylanırlar, insanlar bir baş.

Elə ki, gedirsən qəbirsanlığa,
Təlatüm gələcək bircə anlığa.
Heç kimsə səsinə verməyəcək səs,
Çünki eşitməyir səni heç bir kəs.

Daşlar verəcəkdir, orda baş-başa,
Şəkillər baxacaq sənə kədərlə.
Onlar baxmayacaq gözündə yaşa,
Barışa bilmirsən belə qədərlə.

Vahimə basacaq onda hər yanı,
Tələsik oranı tərk edəcəksən.
Qorxu titrədəcək o şirin canı,
Arxana baxmadan tez gedəcəksən.

## Yüz yaşa

Unuda bilmərəm sənin ananı,
Mənim dərdlərimə mənlə yananı.
Mən xəstə olanda söylədi mənə,
Sənin xəstəliyin qoy gəlsin mənə.

Çünki sən anasan, mən isə nənə,
Qocayam azarın alım gedim mən.
Uşağın körpədir özün bax yenə,
Cavansan, evini qoyub getmə sən.

Belə bir ananın sən övladısan,
Münasib, əzizsən mənim özümə.
Tovuzun fəxiri, gözəl adısan,
Evimə çıraqsan, nursan gözümə.

Yaşının üstünə gəldi yenə yaş,
Səninlə gedəcəm haraya getsən.
Ölümsüz olaydın bu dünyada kaş,
Yüz yaşa deyirəm, ay Münasib sən.

# Ömür versin

Asta-asta, bala – bala,
Biz gedirik hər il dala,
Bircə yüzlük sən yaxala,
Allah sənə ömür versin!

Sən evimin dirərəyisən,
Uşaqların gərəyisən,
Nəvələrin ürəyisən,
Allah sənə ömür versin!

Yüksəkdə çal qanadını,
Qoru gözəl o adını,
Dad nəticənin dadını,
Allah sənə ömür versin!

Bəd nəzərdən uzaq daşın,
Sağlam olsun canın – basın,
Mübarəkdi sənin yaşın,
Allah sağlam ömür versin!

## Elşəni oyat

*şəhid Elşənə*

Ay Allah, bu şəkil öldürdü məni,
Lənətə gələsən, erməni səni.
Gözlərin kor olsun, qurusun dilin,
Kaş topal olaydı o vuran əlin.

Nə idi, nə idi onun günahı?
Səni yandıracaq bizlərin ahı,
Bəlkə də görbagor olubsan özün.
Ovcuna tökülüb o görən gözün.

Kaş görə biləydim gözlərimlə mən,
Görəydim it kimi gəbəribsən sən.
Ay Allah, bu şəkil öldürdü məni,
Yuxu aparıbdı sanki Elşəni.

Dostunun çiyninə qoyub başını,
Saxlaya bilmirəm gözüm yaşını.
Allahım, nə olar möcüzə yarat,
Elşəni yuxudan salamat oyat.

## Daşa yazılır adın

Gəlin verək əl-ələ,
Dolanaq bu dünyanı.
Gəzək biz eldən - elə,
Yaşayaq ən xoş anı.

Bu gün varsan həyatda,
Hər şey yazılır yadda.
Vay o gündən bax birdən,
Əcəl gələ qəfildən.

Kifayətdir bircə an,
Yox olsun hər bir insan.
Məcbursan tərk edəsən,
Bu dünyadan gedəsən.

Sona yetir həyatın,
Dönməyə yox imkanın.
Yox olacaq hər anın,
Daşa yazılır adın.

## Nə yaxşı varsan

Ömrümün boranlı, qarlı çağında,
Allahım göndərən ən gözəl paysan.
Bilmirəm günəşsən, yoxsa kı, aysan,
Yaradan bəxş edən gözəl Gülaysan.

Bəxtimə yazılan güllü baharım,
Mənimçün ən şirin, bir dadlı barsan.
Sevdiyim çox gözəl, dadlı nübarım!
Gözəlim, nə yaxşı mənimlə varsan!

Taleyin üzünə gülsün hər zaman,
Kədərdən uzaq ol, amandır aman.
Səninlə fəxr edək həmişə, hər an,
Gözəlim, nə yaxşı mənimlə varsan!

Mübarək olsun qoy sənin bu yaşın,
Mənim çox sevdiyim güllü baharsan.
Həmişə üzün ağ, dik olsun basin,
Gözəlim, nə yaxşı mənimlə varsan!

# Halaldı Tovuzum

Günlər keçəcəkdir, gələcək zaman,
Səhər açılacaq, günəş doğacaq.
Dağların başından itəcək duman,
Qaranlıq gecəni işıq qovacaq.

Bütün yer üzünə nur ələnəcək,
Ağlaşma səsləri qeyb olacaqdır.
Tovuzum işığa gur bələnəcək,
Yerinə səadət, nur dolacaqdır.

Hər yerə yayılar bülbülün səsi,
Düşmənin kəsilər tamam nəfəsi.
Çünki mən əminəm Tovuz elinə.
Silahı alanda onlar əlinə.

İgiddir Tovuzun hər bir insanı,
Məhv edər onları dünya düzündən.
Vətənin uğrunda verdilər canı,
Düşməni sildilər tam yer üzündən.

Halaldır Tovuzum, halaldır sizə!
Oydunuz düşmənin görən gözünü.
İndi xoş müjdələr göndərdin bizə,
Bütün yer üzündən silin özünü.

## Şəhid oldunuz

Ən uca zirvədə siz yer aldınız,
Tutdunuz əsgərin içdiyi andı.
Ömürlük tarixdə, yadda qaldınız,
Qızıl qanınızla torpaq sulandı.

Siz vətən uğrunda şəhid oldunuz,
Az oldu sizlərə verilən qədər.
Qonçə gül- çiçək tək tezcə soldunuz,
Ömrünüz keçmədi boşuna, hədər.

Şərəfli bir ömür yolu keçdiniz,
Vətənin yolunda siz qoydunuz can.
O yolu kişi tək, zövqlə seçdiniz,
Sizinlə fəxr edir bu Azərbaycan!

Elimin, obamın mərd igidləri,
Ən yüksək məqama siz ucaldınız.
Adınız dolandı bütün yerləri,
Şəhid tək müqəddəs bir ad aldınız.

## Aç gözlərini, aç

Aç gözlərini, aç, mənim balam,
Titrəyir ovcunda bu titrək əlim.
Çağlayan dənizdim, indi bir lalam,
Qorxudan lal oldu, tutuldu dilim.

Aç gözlərini, aç, mənim balam,
Gülümsə üzümə, baxım gözünə.
Gəlmişəm dərdini mən özüm alam,
Möhtacam mən sənin hər bir sözünə.

Qıymadım öpməyə gül yanağından,
Qorxdum dodaqlarım incidər səni
Toxunan olanda qorxdum həmin an,
İndi aç gözünü sevindir məni.

Aç gözlərini, aç, mənim balam,
Təsəvvür eyləmə mənsiz özünü.
Sənsiz bu dünyada mən çətin qalam,
Mənimçün açasan gərək gözünü.

## Anlamasan

Dəniz kimi çağlayaram,
Bulud kimi ağlayaram.
Qəlbimə daş bağlayaram.
Əgər məni anlamasan!

Sən şam oldun, mən pərvanə,
Dərddən oldum bir divanə,
Baxdınmənə sən biganə,
Kül olaram anlamasan!

Nə gecəm var, nə gündüzüm,
Dərd sinəmdə düzüm-düzüm,
Söz deməyə gəlmir üzüm,
Gül tək sollam anlamasan!

Zəhmətimi verdim yelə,
Göz yaşlarım döndü selə,
Nədən oldu, niyə belə?
Mən ölərəm anlamasan!

Gün keçəcək, gələr zaman,
Anlayarsan bir vaxt inan,
Sal yadına məni o an,
Onda ölləm anlamasan!

## Neynirəm, oğlum

Sənsiz açılmasın bircə sabahım,
Yandırar aləmi çəkdiyim ahım,
Bu dünya malında yoxdu tamahım,
Sənsiz yaşamağı neynirəm, oğlum?

Oğlumla gözəldir mənə bu cahan,
Xəyalım dolanır onunla hər an,
Sənə qurban olsun özüm, mən anan,
Sənsiz yaşamağı neynirəm, oğlum?

Qaranlıq gecəmin nurlu ayısan,
Ananın ən gözəl, şirin payısan,
Dünyayı qoparan hay-harayısan,
Sənsiz yaşamağı neynirəm, oğlum!

Bəxtimə yazılan güllü baharsan,
Sən şirin, həm dadlı, gözəl nübarsan,
Yaxşı ki, dünyada mənimlə varsan,
Sənsiz yaşamağı neynirəm, oğlum!

## Buraxma əlimi

Buraxma əlindən əlimi, oğlum!
Həyatım bağlıdır sənin canına.
Qoyma bükülməyə belimi, oğlum,
Qurbanam mən sənin hər bir anına.

Yaradan bəxş etsin mənə özünü,
Buraxma əlindən əlimi, oğlum.
Doyunca seyr edim qara gözünü,
Buraxsan qırarsan belimi, oğlum.

Hər zaman eşitdin mənim sözümü,
Topla sən özündə bütün dözümü.
Sənə qurban dedim, oğlum özümü,
Gəl ağlar qoyma sən mənim gözümü.

Mən dua edirəm hər an Allaha
Buraxma əlindən əlimi, oğlum.
Dizimdə taqətim qalmayıb daha,
Qopartma qəlbimin telini, oğlum.

## Özünü gəzirəm

Yollardan yığılmır, ay ana gözüm,
Bilmirəm nə edim, axı mən necə?
Sənin yoxluğuna de necə dözüm?
Bəlkə sən yuxuma gələsən gecə.

Qalıb ürəyimdə söhbətim-sözüm,
Külək tərpədəndə siyah telimi.
Çıraqla gəzirəm səni tək özüm,
Saxlaya bilmirəm onda əlimi.

Sanki saçlarıma çəkirsən sığal,
İstəyirəm duyam hərarətini.
Gəl mənim əlimi sən ovcuna al,
Doyunca seyr edəm o, qamətini.

Kaş sığal çəkəydin yenə saçıma,
İstəmirəm, ana o mərmər daşı,
Sən şərik olaydın hər bir acıma,
Özünü gəzirəm hər addım başı.

## Nəyinə gərək

Məndən soruşma sən indi hardayam,
De görüm, bax sənin nəyinə gərək?
Çətinə düşmüsəm, yoxsa darayam?
Mən güllü, çiçəkli gözəl bağdayam.

De görüm, bax sənin nəyinə gərək?
İzləyirsən məni qarabaqara.
Üz tutub gedirəm çox uzaqlara,
Arxamca gəlirsən mən getsəm hara.

Bəlkə sən düşəsən mənim yaxamdan,
Danışma heç zaman bir də arxamdan.
De görüm, bax sənin nəyinə gərək?
Yenə danışırsan mənim çuxamdan.

Libasım çuxadır, ya da ki, atlas,
Deyirəm gəl mənə indi qulaq as.
De görüm, bax sənin nəyinə gərək?
Arxamdan qurursan yenə də iclas.

## Payız

Döyür pəncərəmi payız küləyi,
Ələkdən hər yerə yağış ələnir.
Fırladır səmada sanki ələyi,
Hər tərəf islanır, suya bələnir.

Yamyaşıl yarpaqlar olub sapsarı,
Yağışdan islanmış torpağa hopur.
Qızılı yarpaqlar budaqdan qopur,
Əyir budaqları ağacın barı.

Gözəldir payızın bu şux camalı,
Hər yerdən duyulur payızın ətri.
Yarpaqdan salınıb sanki bir xalı.
Necə də əzizdir bu fəslin xətri.

Hər fəslin özünün var gözəlliyi,
Dörd fəslin elə bil gözüdür payız!
Özünə məxsusdur hər özəlliyi,
Bəzəkli gəlinin özüdür payız!

## Həmin adamsan

Nə əvvəli unut, nə də sonunu,
Nə qədər dəyişsən gündə donunu.
İstəyir yüz olsun, istər onunu,
Yenə də sən həmin həmən adamsan.

Yerdə dayanmayıb, göylə gedirsən,
Sanki bu dünyanı sən fəth edirsən,
Bu vara-dövlətə nə qədər yetsən,
Yenə də sən həmin, həmən adamsan.

Dünyanı bax tutub durmayacaqsan,
Heç kimi arxadan vurmayacaqsan,
Kimsəyə kələk də qurmayacaqsan,
Bilirəm, sən həmin, həmən adamsan!

Elə bil dönmüsən şeytana, cinə,
Yola gəl, gec deyil, baxma gecinə,
Heç nəyi almırsan onsuz vecinə,
Yenə də sən həmin, həmən adamsan!

## Eşşəkdən at olmaz

Eşşəyə qoysan da qızıldan palan,
Ondan at olammaz bil ki, heç zaman.
Gözünə xoş gələr o an libası,
Yerində qalacaq eşşək ədası.

Başına qoysan da qızıldan tacı,
Xaradan olsa da  onun libası.
Anqırmaq olacaq yalnız amacı,
Xeyiri olmayır heç bir abbası.

Eşşəyin var gözəl xüsusiyyəti,
Yorulmaq bilmirlər heç zaman qəti.
Yükləri daşımaq olub peşəsi,
Belində gəzdirir istəyən kəsi.

Onların bu işdə yoxdu günahı,
Eşşək tək yaradıb çünki yaradan.
Belə yaradıbdır yaradan axı!
Eşşək doğulublar onlar anadan.

## Onda olardı

Hər şey gözəl olur öz zamanında,
Həyatın ən gözəl, ən xoş anında,
Sevdiyin adam da ola yanında,
Dünyanın ləzzəti onda olardı.

Yağışlı havada, dumanda, çəndə,
Leyli tək dolanıb, mən tək gəzəndə,
Yanımda olsaydın bax onda sən də,
Dünyanın ləzzəti onda olardı.

Mən Leyli olmuşam, sən də ol Məcnun,
Birlikdə yanaydıq, sanki iki mum,
O zaman olardım dünyadan məmnun,
Dünyanın ləzzəti onda olardı.

Könlümdə cürbə-cür xəyal quranda,
Vağzalı calınan o gözəl anda,
Mən gəlin, sən də bəy qoşa duranda,
Dünyanın ləzzəti onda olardı.

# Müəllim

Məktəbdə hər səhər bizi gözləyən,
Ey əziz müəllim, sizlərsiniz siz!
Ana tək hər kəsi hər an izləyən,
Həmişə bizlərə siz əzizsiniz.

Hər kəsin üstündə var əməyiniz,
Məktəbdir sizlərin doğma eviniz.
Bizimlə birgədir xoş diləyiniz,
Təhsili hamıya siz sevdirdiniz.

Qəlblərə yazılıb müəllim sözü,
Onlar fəxrimizdir bizim hər zaman.
Bu möhrü vurubdur müəllim özü.
Onları qoruyaq amandır, aman.

Ana tək bizimlə fəxr edəndilər,
Doğma balasından seçməz heç kəsi.
Doğru yol göstərib, düz gedəndilər,
Hər zaman yüksəkdən gəlsin qoy səsi!

## Müəllim günü

Müəllim günüdür, a dostlar bu gün!
Şagirdin yolunda mayakdı onlar.
Gəlin qiymət verək onlara düzgün,
Ana tək hər kəsə dayaqdı onlar.

Hamının üstündə vardır əməyi,
Şagirdin dərdinə yanandı onlar!
Güzgü tək görürlər xoş gələcəyi,
Şərəfli, qürurlu anadı onlar!

Hamıya əzizdir, həm də müqəddəs,
Hər yerdə görünür onların izi.
Çox sevir onları hər yerdə, hər kəs.
Mələk tək qoruyur, həmişə bizi.

Ucaldaq onların biz də başını,
Hamımız elliklə birlikdə deyək.
Gözündən qoy silək sevinc yaşını.
Müəllim günləri olsun mübarək!

## Məktəb illəri

Hər səhər sübh tezdən mən oyanardım,
Məktəbin önündə tez dayanardım.
Yadımdan çıxmayır məktəb illəri,
Sevərdim önündə bitən gülləri.

A məktəb illəri, məktəb illəri,
Yadımdan çıxmayır o zəngin səsi.
Ömrümə yazıldı hər fəsilləri,
Məktəbə səslərdi bütün hər kəsi.

Dəhlizlər uşaqla aşıb, daşardı,
Dərslərin hamsını bildiyim zaman.
Həyacan, tərəddüd başdan aşardı,
Az qala quş olub uçardım inan.

A məktəb illəri, məktəb illəri!
Cavanlıq getsə də, qocalsam da mən.
Sən mənə öyrətdin gözəl dilləri,
Çıxmırsan yadımdan bircə an da sən.

## İlk zəngin səsi

Payız gələn zaman açılır məktəb,
Var bizdə çox gözəl təhsil ocağı.
Artıq hər bir yerdə bu olubdu dəb,
Hamıya açıqdır onun qucağı.

Gələcək hər yerdən ilk zəngin səsi,
Uşaqlar məktəbə gedəcəkdilər.
Şagirdə olacaq məktəb töhvəsi,
Bir yerdə danışıb, güləcəkdilər.

Balam da məktəbə tez yol açıbdı.
Bağçadan, həyətdən daha doyubdu.
Günəş hər tərəfə şəfəq saçıbdı,
Birinci sinifə qədəm qoyubdu.

Silinsin ömründən qəm, kədərləri,
Gözəldir məktəbdə ilk zəngin səsi.
Xoş olsun balamın bu qədəmləri,
Sehirə bələyir bütün hər kəsi.

## Son zəngdir

Doğmadır yurdumun küncü, bucağı,
Məktəblər bəzəyir bütün elləri.
İnkişaf eyləyib təhsil ocağı,
Yaddaşdan silinməz məktəb illəri.

Müəllim işlədim illərdir özüm,
Şagirdə açmışam mən qucağımı.
Bu gün var hər kəsə deyəcək sözüm,
Qəlblərdə qaladım elm ocağımı.

Sevmişəm şagirdi öz balam kimi,
Cürbəcür sənətə sahib olublar.
Minlərlə yetirdim mən el həkimi,
Mələktək qəlbimə bir-bir dolublar.

Son zəngdir, məktəbdə bu gün də yenə,
Anatək sevirik hər birinizi.
Əlvida söyləyir şagirdlər mənə,
Yaddan çıxartmayın uşaqlar bizi.

## Şəhid atası

Gəzsək də obanı, bütün mahalı,
Tapmarıq sizin tək mərd ağsaqqalı!
Gözündən tökülən bircə damla yaş,
Ox olub qəlbimə toxunur bir baş.

Nə qədər kövrəkdir gözəl qəlbiniz!
Dərin bir dəryadır, coşan bir dəniz!
Elə ki, eşidir şəhid sözünü,
Saxlaya bilməyir ürək özünü.

Sanki dəniz kimi birdən çağlayır,
Gərək mən öləydim, deyib ağlayır.
Ey şəhid atası, dik tut başını!
Ağlama heç zaman, sil göz yaşını!

Sizlər böyüdübsüz, o igidləri,
Olublar hər evin mərd şəhidləri.
Vətənin yolunda tökübdülər qan,
Sizinlə fəxr edir bu Azərbaycan!

## Sözün bitdiyi an
*(Təyyarə qəzasında yanan Məhəmmədə)*

Gözümdə yaş gilə-gilə,
Yanağımda cığır saldı.
Yandı bağrım, döndü külə,
Bu tabloda gözüm qaldı.

Gənc bir ata olmuşdu daş,
Atasını gəzən oğlan.
Leysan oldu gözümdə yaş,
Ağlayırdı həmin bu an.

Oğlu onu cağırırdı,
Səs verən yoxdu səsinə.
Ata deyə bağırırdı,
Çökdü daşın sinəsinə.

Qucaqladı mərmər daşı,
Yoxdu daşın qol – qanadı.
Söykənmişdi daşa başı,
Verməyirdi ata dadı.

Bu mənzərə ağırdır çox,
Heç bir şeyə bənzəri yox.
Daşdan olmur hec vaxt insan,
Budur sözün bitdiyi an!

# Şəhidin var

Şəhidin var, Azərbaycan!
Düşmən yenə çalxalanır.
Dünya - aləm ağlayır qan.
İndi kimə arxalanır?

Şəhidlərin artır sayı,
Oğul deyir hər bir ana.
Qarşılayır əmi, dayı,
Qan ağlayır yana-yana.

Vətən düşüb yenə dara,
Bağlayıbdır ürək yara.
Dönüb baxsan indi hara,
Geyinibdi hər kəs qara.

Şəhidin var, Azərbaycan!
İgidlərim, məğrur dayan!
Xalqım, dik tut sən başını,
Sil yenə də göz yaşını.

Başlıcası budur əsas,
Əl çək bizdən yağı, düşmən.
Düşməndən biz aldıq qisas,
Basılmazdır bizim vətən!

## Şəhidlər ölməyəcək

İnildəyir yenə vətən,
Hər gün olur ölən, itən,
Olsan da sən loğmana tən,
Onlar heç vaxt dönməyəcək.

Günlər keçir ağır-ağır,
İstər yalvar, istər çağır,
Baxacaqsan fağır-fağır,
Gedən geri gəlməyəcək.

Yol saçını, yar başını,
Çağır ölən qardaşını,
Töksən də sən göz yaşını,
Onlar hec nə bilməyəcək.

Şəhid bizim baş tacımız,
İgid qardaş, mərd bacımız,
Ürəkdədir bu acımız,
Şəhidlər heç ölməyəcək!

## Zəfər bayramı

Ey gözəl vətənim, Azərbaycanım!
Səninlə fəxr edir, duyuruq qürur.
Sənə qurban olsun, mənim bu canım,
Zəfər sevinciylə qəlbimiz vurur.

Savaşı qazandıq, qələbə çaldıq,
Bu yolda igidlər qoydu canını.
Düşməni yurdumdan didərgin saldıq,
Vətənin uğrunda tökdü qanını.

Hər ovuc torpaqda var şəhid qanı,
Dəyişib vətənin abu-havası.
Onlara borcluyuq bütün hər anı,
Vətənim geyinib bayram libası.

Zəfər bayramımız mübarək olsun!
Zəfər libasını biçdi şəhidlər!
Bütün hər bir evə müjdələr dolsun,
Şərəfli bir yolu keçdi şəhidlər.

## Üz tutaram yenə yara

Tutmasa heç əlim-qolum,
Bağlansa da mənim yolum.
Baxmaram heç boran, qara,
Üz tutaram yenə yara.

Əssə külək, coşsa tufan,
Yer yerindən qopsa o an.
Çəksələr də məni dara,
Üz tutaram yenə yara.

Şimşək olub mən çaxaram,
Selə dönüb hey axaram.
Axıb getsəm bil ki, hara,
Üz tutaram yenə yara.

Gündüz günəş, gecə ayam,
Öz yarıma özüm tayam.
Mən nə qədər düşsəm dara,
Üz tutaram yenə yara.

## Qayıda biləydim

Tez ötdü ömrümün güllü baharı,
Bu ömrü mən necə vermişəm bada?
Qarlı qış tutubdu indi yolları,
Cavankən qocalıq düşmürdü yada.

Gedibdi cavanlıq baxıram düzü,
Ömrün qış çağında qar da ələnib.
Nə yaman sərt olur bu qışın üzü?
Saçlarım elə bil qara bələnib.

Qalmayıb qaradan əsər-əlamət,
Qırışlar üzümdə cığır salıbdır.
Qopubdu ömrümdə sanki qiyamət,
Əzrayıl qatara bilet alıbdır.

Mənimlə dolanır birgə hər zaman,
Geriyə dönməyən o cavanlığa.
Kölgə tək izləyir məni anbaan,
Qayıda biləydim kaş bir anlığa.

## Bu dünya fanidir

Dünyada qalacaq bu dünya malı,
Hər kəsin özünün var bir amalı.
İnsanlar istəyir toplasın sərvət,
Kimisi aşkara, kimisi xəlvət.

Ölümlə gəlsə də hamı üz-üzə,
Sabah nə olacaq bilməyir özü.
Gecəni qatırlar hər an gündüzə,
Heç kimin sərvətdən doymayır gözü.

Bu dünya fanidir, insan köçəri,
Bir gün bu dünyadan köç edəcəklər.
Dolanıb gəzsə də bütün yerləri,
Üç metr ağ ilə bax gedəcəklər.

Ey insan oğlu sən, aç bir gözünü,
Xeyirxah işlər gör, sən yaşa, yarat.
Hər bir pis əməldən qoru özünü,
Şərəflə ömür sür, gecə rahat yat.

# Qəlbi kor olan

Üzündə gülüş var, gözündə kədər,
Nə imiş görəsən axı günahın?
Bəxtinə yazılıb belə bir qədər,
Kədərlə açılır hər bir sabahın.

Bəxtini kəm yazıb bəxti yazanlar,
Gözəllik səndədir, mərifət səndə.
Çox olur gözələ quyu qazanlar,
Paxıllar kor olur səni görəndə.

Üzündən, gözündən bu kədəri sil,
Sağlamdır üzündə hər iki gözün.
Özünü həmişə xoşbəxt qadın bil,
İnsan var heç nəyi görməyir özü.

Gözü yox, bax onun qəlbi kor olub,
Kordan da pis olur qəlbi kor olan.
Hər cürə pisliklər qəlbinə dolub.
Qədrini bilməyir yaxşının inan.

## Hardasan həyatım

Həsrətin qəlbimə kədər, qəm düzdü,
Yoxluğun ömrümü anbaan üzdü.
Göz yaşım yanaqdan bulaq tək süzdü,
Hardasan həyatım, qayıt yanıma?

Sənsiz bu gen dünya mənə dar olub,
Ağarıb saçlarım sanki qar olub,
Məni bu günlərə salan yar olub,
Hardasan həyatım, qayıt yanıma.

Nə imiş dünyanın sənsiz ləzzəti,
Mənası yoxuymuş heç nəyin qəti,
Ayrılıq öyrətdi bu həqiqəti,
Hardasan həyatım, qayıt yanıma?

Ayrılıq yamanmış, ölümdən betər,
Gəlməsən biləsən bax, ömrüm bitər,
Son qoy bu zülümə, bu qədər yetər,
Hardasan həyatım, qayıt yanıma.

## Bəxtimi yazan mələklər

Ey mənim bəxtimi yazan mələklər!
Mənə bəxş etdiniz bomboş illəri.
Yazarkən ağ günü pozan, mələklər!
Siz nədən sildiniz o ağ günləri?

Bilmirəm, nə oldu, həmin o anda?
Siz gərək fələyə quyu qazardız.
Xəsislik etdiniz bəxti yazanda,
Mənə də xoş gündən bir az yazardız.

Ey mənim bəxtimi yazan, mələklər!
Olmuşam Allahın mən də bəndəsi.
Ömrümə yazdınız qurğu, kələklər,
Siz xoşbəxt etdiniz amma hər kəsi.

Nə olar, yazanda eyləməyin naz,
Çox olsun ömürdə xoş günün sayı.
Mənim də bəxtimi bir az gözəl yaz,
Bəxt yazan mələyin bol olsun payı.

## Darıxdım

Darıxdım bu axşam, darıxdım yaman,
Həsrət yazılıbdı sanki adıma.
Xəyalın gözümdən getmədi bir an,
O sənli günlərim düşdü yadıma.

Düşündüm bu axşam yenə bir anlıq.
Üzdü məni həsrət, həm də ki, kədər.
Sənsiz dünya olur mənə qaranlıq.
Bilmədim aradan keçib nə qədər.

Yerimdə donaraq qalmışam inan.
İstəyirəm yumub - açam gözümü,
Saata baxıram, kecməyir zaman,
Səninlə birlikdə görəm özümü.

Çətindir, ayrılıq çətindən çətin,
Yoxluğun kədərdir sənin hər zaman.
Gərək ürək olsun dözümlü, mətin,
Gözləyirəm səni həmişə, hər an.

## Çevrilə biləydim

Sən mənim şəkərim, həm də balımsan,
Atəşin bürüyüb məni yandırır.
Məni eşq oduna salan zalımsan,
Ətrafda hər bir şey səni andırır.

Uca dağ başında olur duman, çən,
Eşqin ürəyimdə dolanıram mən.
Dağları fırlanan o çən mənəm, mən,
Olmuşam arxanda sürünən kölgən.

Dağın ətəyinə çökən dumanam,
Bəxtəvər dumanın, çənin başına.
Bəlkə xəyalından ötən gümanam,
Hər zaman çökürlər dağın daşına.

İstərdim güman yox, mən duman olum,
Dönəydim buludun axan yaşına.
Sərin bir meh kimi sinənə dolum,
Çevrilə biləydim sirr yoldaşına.

## İsmayıl
*(qazi)*

Dağı dağ üstünə qoyan qəhrəman!
Haqqın dərgahına indi qovuşdu.
Düşmənin köksünü oyan qəhrəman!
Elə bil dünyamız bir anda uçdu.

Komandir hər zaman öndə getmişdir,
İtirdik qəhrəman, mərd qazimizi.
Vətənə ürəklə xidmət etmişdir,
Düşməndən qorudu o, cümləmizi.

Dağ çəkdi düşmənin köksünə hər an,
Nə qədər pul qoydu onun başına.
Onunla fəxr etdi bu Azərbaycan,
O, məhəl qoymadı düşmən yaşına.

İsmayıl gedibdir indi rəhmətə,
Vətənə bağlıydı onun hər anı.
Ancaq o ölmədi, köçdü cənnətə,
O cənnət əbədi olsun məkanı.

## Dünya əbədidir

Bu dünya qocadır, qocadan qoca,
Az qala buluda dəyəcək başı.
Dağların zirvəsi ucadan uca,
Göllərdə olan su sanki göz yaşı.

Bu qoca dünyanın var şəlaləsi,
Var uzun çayları, billur bulağı.
Aləmi bürüyür şırıltı səsi,
Gözəldir, dadlıdır meyvəli bağı.

Görünmür meşənin ucu-bucagı,
Dörd fəsil həmişə dövrünü edir.
Qocaman dünyanın gendi qucağı,
Günəşi gələndə gecəsi gedir.

Sirlidir bu dünya, xəyala dalır,
Bir - bir insanları qoynuna alır.
Özü əbədidir, həmişə qalır,
Ancaq hər bir kəsi o, yola salır.

## Geri dönməyir

Bəzən istəyirəm keçmişə qaçam,
Analı günlərə qayıdaydım kaş.
Uşaqlıq illərin qapısın açam,
Bağrıma basaydım mən onu bir baş.

Qaytara biləydim cavanlığımı,
Cavanlıq quş kimi uçaraq getdi.
Çıraqla gəzirəm bir anlığını,
Gözlərim önündən xəyal tək ötdü.

Artıq xəyallara dönüb gəncliyim,
Sanki gözəlliyim artıq solubdur.
Əlimdən alınıb bütün dincliyim,
Gözlərim işıqdan, nurdan olubdur.

Keşmişə qaçsam da yoxdur əlacı,
Heç kimə dönməyir geri cavanlıq,
Axtardığım cavab acıdan, acı,
Sən görə bilməzsən onu bir anlıq.

## Sevsəydin bilərdin

Heyranam mən sənin gül camalına,
Vuruldum yanaqda qara xalına,
Kaş bələd olaydın mənim halıma,
Sevsəydin bilərdin bu sevgi nədir?

Gözəldir həyatda sevib-sevilmək,
Gözəldir sevginin qədrini bilmək,
De, nəyə lazımdır sevgisiz ölmək,
Sevsəydin bilərdin bu sevgi nədir?

Acıdır, şirindir bax onun dadı,
Dünyayla bir olub hər zaman adı,
Təccüb etdirərdin həm dostu, yadı,
Sevsəydin bilərdin bu sevgi nədir?



## Vədəsiz getmə

Asılı olmadı mənim özümdən,
Qoymadın heç qaysaq tutsun bu yara.
Biləsən, düşmüsən tamam gözümdən,
Eylədin sən mənim günümü qara.

Arxamca gəzirsən bax addım – addım,
Elə bil minmisən mənim boynuma.
Zəhərtək dərmanın hamsını daddım,
Həmişə gəlirəm qəliz oynuna.

Əzrayıl qoymusan sən öz adını,
Xəstəlik verirsən hey büküm- büküm.
Qoymadın həyatın biləm dadını,
Başıma nə qədər mən həkim töküm?

Rahatca otur öz əcəl taxtında,
Əzrayıl, nə olar heç belə etmə.
Getdiyin qapını sən döy vaxtında,
Kimsənin evinə vədəsiz getmə.

## Sevgi yağışı

Ey mənim ömrümün güllü baharı,
Bənzərin var sənin gözəl günəşə.
Könlümün sevdiyi istəkli yarı,
Gözlərin salıbdı məni atəşə.

Sanki gözlərində bir şimşək çaxır,
Ey mənim ömrümün güllü baharı.
Özümü bu şimşək yandırıb yaxır,
Sevdamın ən gözəl, şirin nübarı.

Ömrümə yazılan ən gözəl paysan,
Baxışın düşdüyü yeri yandırır.
Dünyaya nur saçan günəşə taysan,
Özümü bu baxış Leyli sandırır.

Leyliyəm, dərdindən olmuşam dəli,
Gözündən ələnir sevgi yağışı.
Leyliyə döndüyüm üzümdən bəlli,
Sevirəm yandıran o lal baxışı.

## Namə yaz

Deyirəm mən sənə indi düzünü,
Sanki gözlərindən ələnirdi nur.
Bir aylı gecədə gördüm üzünü,
Məni səsləyirdi, deyirdi ki, dur.

Diqqətlə bax onun qara gözünə,
Boş yerə boylanma o yan, bu yana.
Namə yaz oğlanın indi özünə,
Eşqini bəyan et indi oğlana.

Sənincün dünyaya gəlib o oğlan,
Gündüzlər günəşdir, gecələr aydır,
Bəxtini sına sən elə həmin an,
Bu sənin bəxtinə düşən bir paydır.

O gündən qəlbimə yazdım adını,
Saf eşqin yolunda addımlar ataq.
Çıxardaq bu eşqin şirin dadını,
Sənli dünyamıza bir işıq qataq.

## Sevirəm söyləyir

Dilim tutulubdu, sanki lal olub,
Nitqim qurusa da danışır gözüm.
Sevincdən gözlərim yaş ilə dolub,
Gözümdən oxunur bütün hər sözüm.

Bütün lal baxışlar dayanmır bir an,
Gözündən gözümə alov ələnir.
Gözüylə danışa bilərmiş insan,
Hər tərəf elə bil nura bələnir.

Qığılcım yandırır mənim canımı,
Səssiz baxışların lap ötür dil-dil.
Coşdurur damarda axan qanımı,
Sevirəm söyləyir, sanki elə bil.

Susuram, demirəm bircə kəlmə söz,
Sevinclə baxıram sənin gözünə.
Ürək pıçıldayır, gəl bir azca döz,
Biləsən, vuruldum mən də özünə.

## Qoymayın qızları darda

Bir dinləyin, ay obalar, ay ellər,
Yerdən yığılmayıb onların qanı.
Qırılsın qadına qalxan o əllər,
Bizim canımızdan ayrılıb canı.

Sahiblənsin hamı öz övladına,
Heç bir vaxt qoymayın qızları darda.
Hər zaman yetişsin onun dadına,
Baxmayın olsa da lap onlar harda.

Bu qızlar deyildir kiməsə kölə,
Onlara göstərmən öz gücünüzü.
Qoymayın onları nahaqdan ölə,
Ayrı yerdən alın siz öcünüzü.

Hər biri anadır, həm də bacıdır,
Dərdlərə yanandır bütün qadınlar.
Atanın ürəyi, başda tacıdır,
Yaxşı ki, dünyada bu qadınlar var.

# Qorxuram gəlməzsən

Baxıram saata keçməyir zaman,
Ətrafa baxıram indi bir anlıq.
Bu dünya başıma fırlanır inan,
Getdikcə hər yerə çökür qaranlıq.

Elə bil saatdan asılıbdı daş,
Bürüyüb hər yeri kədər, qəm necə?
Bulaq tək süzülür gözlərimdən yaş,
Çox sirli görünür mənə bu gecə.

Elə bil düşmüşəm çətin bir işə,
Ürəyim titrəyir, əllərim əsir.
Qorxuram, gəlməzsən birdən görüşə,
Həyəcan lap məni qılınc tək kəsir.

Anidən bir qüvvə gəldi özümə,
Təşəkkür edirəm əzizim sənə,
Çünki sən göründün birdən gözümə,
Elə bil dünyanı bəxş etdin mənə.

## Yazın özümə

Bir mələk görmüşəm gözləri ala,
Çox gözəl yaraşır ona işvə, naz.
Dərdindən dəliyəm onun az qala,
Nə tərif söyləsəm az olacaq, az.

Yerişi bənzəyir bir qızıl quşa,
Ay Allah, yazaydın bəxtimə onu.
Elə ki, görürsən gəlirsən cuşa,
Onunla gələydi həyatın sonu.

Birlikdə gəzəydik çölü - çəməni,
Dolanım onunla düzü-dünyanı.
Güllükdən yığaydıq tər yasəməni,
Onun tək bir gözəl, ay Allah hanı?

Ey mənim bəxtimi yazan mələklər,
Nə qədər çox olur arzu, diləklər.
Gördüyüm mələyi yazın özümə,
Nur edim hər zaman onu gözümə.

## Mən onu çox sevirəm

Uca dağlar aşmışam,
Dərd əlindən qaçmışam.
Mən onu çox sevirəm!
Ona qucaq açmışam.

Onsuz dünyam qaradır,
Ürəyim lap yaradır.
Mən onu çox sevirəm!
Könlüm onu aradır.

Gözləyirəm hər zaman,
Ümidim var anbaan.
Onsuz qışdır baharım,
Vəfasız çıxıb yarım.

Tufan kimi çağlaram.
Onsuz hər an ağlaram.
Mən onu çox sevirəm!
Qəlbimə daş bağlaram.

## Səs verin səsimə

Ən böyük qüvvəsən dünyada, qadın!
Bu gün gənc bir qızsan, sabahsa ana.
Vətənlə bərabər çəkilir adın,
Dünya bir yanadır, sən də bir yana.

Qırılsın qadına qalxan hər əllər,
Qoymayın əzilsin onlar heç zaman.
Çürüsün qadına küfr edən dillər,
Düşün ki, sənin də qadındır anan.

Səs verin səsimə ellər, obalar,
Qıymayın həyatı tərk eyləsinlər.
Qadınsız qalmasın heç vaxt yuvalar,
Onları arxasız heç bilməsinlər.

Səs verin, qadınlar mənim səsimə,
Bilsinlər tək deyil onlar həyatda,
Güc verin birlikdə siz nəfəsimə,
Zərif məxluq kimi qalacaq yadda.

## Hardasan ömrüm, günüm

Gəzdim düzü, çəməni,
Axtarırdım mən səni.
Olmadı gördüm deyən,
Dəliyə dönmüşdüm mən.

Həsrətindən alışdım,
Alovlara qarışdım.
Hardasan ömrüm, günüm?
Yerlə bir oldu külüm.

Mən kibritsiz yanmışam.
Səni eşqim sanmışam.
Hardasan ömrpüm, günüm?
Yorulub, usanmışam.

Dardı dünya başıma,
Rəhm elə göz yaşıma.
Hardasan ömrüm, günüm?
Yenə gəl çıx, qarşıma.

## Dünyaya gəlmişəm

Ən gözəl bir gündür bu gün dünyada,
Dünyaya açmışam bu gün gözümü.
Mən sahib olmuşam Rəna tək ada,
Topladım özümdə gücü, dözümü.

Gün günə calandı, illər də ilə,
Əsərlər yaratdım, kitab bağladım.
Demərəm ömrümü vermişəm yelə,
Xalqımla bir güldüm, bir də ağladım.

Yaxşı ki, dünyaya gəlmişəm özüm,
Üç övlad böyütdüm, yeddi də nəvə.
Var mənim deməyə bu gün çox sözüm,
Saxladım onları mən sevə-sevə.

Ey həyat yoldaşım, sənədir sözüm,
Düşündüm, olmasam kimi alardın?
Səninçün gəlmişəm dünyaya özüm,
Qorxdum ki, sən mənsiz subay qalardın.

## Ömür hara tələsirsən

Gün dolanır, keçir illər,
Sanki uçur bu fəsillər.
Solub gedir açan güllər,
Ömür hara tələsirsən?

Yumdum, açdım mən gözümü,
Doğru dedim hər sözümü,
Tanıtmadım heç özümü,
Ömür hara tələsirsən?

Doyunca ver sən bir imkan,
Xoş yaşasın bütün insan,
Xoşbəxt olsun onlar hər an,
Ömür hara tələsirsən?

Bu dünyadan qoy həzz alaq,
Şad, firəvan yaşa dolaq,
Kaş ölümsüz, xoşbəxt qalaq,
Ömür hara tələsirsən?

## Neynirəm, a dünya

Neynirəm, a dünya axı mən səni?
Dünyaya gələndən yandım, alışdım.
Əzəldən sevmədin çünki sən məni,
Səninlə gah küsdüm, gah da barışdım.

Acılı, şirinli günlərim oldu,
Aldın gəncliyimi mənim əlimdən.
Verdiyin güllərin birbəbir soldu,
Qurtara bilmədim heç vaxt zülümdən.

Getdi əzizlərim bir-bir yanımdan,
Həmin yaralarım hey verirdi qan.
Yaralar açıldı sanki canımdan,
Küsdüm mən a dünya, səndən həmin an.

Neynirəm, a dünya axı mən səni?
Bir də bu dünyaya gəlmərəm inan.
Sən peşman eylədin səni görəni,
Çünki yox edirsən insanı hər an.

## Üzük tax

Bədirlənmiş bir ayam mən,
Bənzəyirəm həm günəşə.
Ulduzlara lap tayam mən,
Nur saçıram bax həmişə.

Qığılcım tək mən saçaram,
Qoxum gəzər hər bir yanı.
Qızıl gültək hey açaram,
İstəyirəm sən də tanı.

Dəniz kimi çağlayaram,
Könülləri  dağlayaram.
İki dünya lap bir olsa,
Tək səninçün ağlayaram.

Külək kimi bərk əsərəm,
Yollarını hey kəsərəm.
Bax görüşə sən gəlməsən,
Onda səndən mən küsərəm.

Xəbərlərim düzüm-düzüm,
Dinlə məni, gəl mənə bax.
Söz deməyə gəlmir üzüm,
Barmağıma bir üzük tax.

## Ana

Hər gecə yuxuma qonaqsan, ana,
Bilmirəm kim dəyib sənin xətrinə.
Evindən sən niyə qaçaqsan, ana?
Həsrətəm mən sənin o gül ətrinə.

Elə ki, gecələr yumdum gözümü,
Bax ona görə də biləydin necə.
Səninlə görürəm birgə özümü,
İstəyirəm ola həmişə gecə.

Həsrətin qəlbimi didir, dağıdır,
Getdiyin yollara dikilir gözüm.
Yoxluğun həmişə məni ağrıdır,
Hər gün gözləyirəm səni mən özüm.

Gəzsəm də dünyanı, çölü, çəməni,
Ana müqəddəsdir, əzizdir ana.
Unuda bilmirəm heç zaman səni,
Dünya bir yanadır, ana bir yana.

## Ürəyimdə axtar

Zilləmə gözümə qara gözünü,
Axtarma gözümdə heç vaxt özünü.
Öyrənmək istəsən əgər düzünü,
Çəkinmə, gəl söylə ürək sözünü.

Kölgə tək arxamca hey sürünürsən,
Şimşək tək başımın üstə çaxırsan.
Gəzdiyim hər yerdə sən görünürsən,
Həmişə gizlicə mənə baxırsan.

Axtarma özünü mənim gözümdə,
Ürəyim olubdur sənin məkanın.
Tapmışam yerini özüm özümdə,
Qanıma həkk olub bütün hər anın.

Su kimi hopubsan mənim qanıma,
Hər şeyin söylədim sənə düzünü.
Sanki sən çökübsən bütün canıma,
Axtar ürəyimdə indu özünü.

## Mənimtək sevəmməz

Qalmışam yad eldə ağlaya, gülə,
Sığındım dərdlərin son limanına.
Yaralı ürəyim az qala ölə,
Qurbanam, ay oğlum hər bir anına.

Hər yana gəlibdi çiçəkli bahar,
Görsən ürəyimdə çağlayır tufan.
Yaralı sinəmdə qarlı bir qış var,
Dünya dağılıbdı biləsən o an.

Elə ki, sən yaxşı dəydin gözümə,
Qarlı qış bahardır onda özümə.
Sən mənim ömrümün nurlu ayısan,
Ananın ən gözəl, ləziz payısan.

Səninlə alıram dünyada nəfəs,
Qurbanam mən sənin oğlum gözünə.
Mənim tək sevəmməz səni hər bir kəs,
Bəxş etdi yaradan səni özümə.

## Qədrini bilsin

Gözlərim yoldadır, qulağım səsdə,
Xəyala dalmışam kədərli, qəmli.
Xanəndə oxuyur gözəl şikəstə,
Yollara baxıram gözləri nəmli.

Hər yana yayılır mahnının səsi,
Eşqin yollarında su kimi axdın.
Havadan duyulur sevgi nəfəsi,
Mən gedən yollara mənim tək baxdın.

Ürəyimdə sevgi taxtını qurdun,
Bir üzük gətirdin, eylədin nişan.
Ülvü məhəbbətin möhrünü vurdun,
Səninlə döyünür ürəyim hər an.

Çıxardaq sevginin şirin dadını,
Qoy hər kəs bizimtək sevsin, sevilsin.
Birlikdə yaşadaq onun adını,
Öz təmiz eşqinin qədrini bilsin!

## Niyə sevmirsən

Buraxmaram bax səni,
Elə bil ki, zəliyəm.
Gəl incitmə heç məni,
Bil, dərdindən dəliyəm.

Bəlkə kor olub gözün?
Sanki məni görmürsən.
Yaxşı fikirləş özün,
Dedim bəlkə ölmüsən?

Bezmişəm mən əlindən,
Hara belə gedirsən?
Kəlmə çıxmır dilindən,
Yaman çox naz edirsən.

Anlamıram heç səni!
Korum yox, keçəlim yox.
Niyə sevmirsən məni?
Vallah, istəyənim çox.

## Minib boynuma

Ağarıb saçlarım, tökülüb dişim,
Əllərim titrəyir, bükülür belim,
İşıqlı dünyada bitibdi işim,
Tutmayır qələmi titrəyən əlim.

Boylanıb baxıram indi güzgüyə,
Başıma elə bil qar da ələnib.
Tamaşa edirəm sanki özgüyə,
Sifətim qırışla tamam bələnib.

Ay Allah, doğurdan indi bu mənəm?
Dağların başında sanki bir çənəm.
Bir anda tərk edir dağı duman, çən,
Dünyanı tərk etdim bir də gördün mən.

Gəncliyin yerini qocalıq alıb,
Artıq mən gəlmişəm onun oynuna.
Mənimlə qocalıq üzbəüz qalıb,
Minibdi qocalıq, vallah boynuma.

## Çünki sevirəm səni

Heyranam mən özünə,
Vuruldum qaş - gözünə.
Telinə bir daraq çək,
Tökülməsin üzünə.

Mən deyirəm düzünü,
Gəzək sahil boyunca.
Gizlətmə gül üzünü,
Sənə baxım doyunca.

İstərəm sevə-sevə,
Gəl biz tutaq əl-ələ.
Mən köçüm sizin evə,
Dolanaq eldən-elə.

Buraxmaram əlini,
Gəl bir az dinlə məni.
Ollam anan gəlini,
Çünki sevirəm səni.

## Mübarək olsun

Mələk tək doğuldun, gəlin anadan,
Oğlumun günəşi, həm də ayısan.
Oğlumcün yaratmış səni yaradan,
Sən onun ən gözəl sevgi payısan!

Sev onu, o, səni sevdiyi qədər,
Qoy sevən ürəklər gəlsinlər cuşa.
Yazmasın Allahım bəxtinə kədər,
Oğlumla birlikdə addımla qoşa.

Birlikdə dolaşın, çölü-çəməni,
Gözəldir yaşamaq, verin əl-ələ.
Qızların içindən seçib o, səni,
Mehriban yaşayın siz gülə-gülə.

Mübarək olsun qoy sənin bu günün,
Təbrik eyləyirəm, gözəlim sizi.
Mübarək olsun qoy toyun – düyünün,
Sevindirin hər an, həmişə bizi.

## Ayla balam

Gözləri göyçək, balam.
Ətirli çiçək, balam.
Nə gözəldir baxışın?
Hər an tutsun naxışın.

Sən şirinsən, dadlısan,
Özün Ayla adlısan.
Gözəllərin gözüsən,
Bir mələyin özüsən.

On doqquz baharın var,
Səndədir təmkin, vüqar.
Sənin tək gözəl ancaq,
Mənim evimdə olar.

Ən gözəl gündür bizə,
Xoş gəldin evimizə.
Təbrik edirəm səni,
Sən sevindir nənəni!

## Yağma, ey yağış

Hər zaman deyirəm sözü düzünə,
Səmada nə qədər çoxlu bulud var.
Kədərlə baxıram göyün üzünə,
Ordan səpələnir yerə yağış, qar.

Yağma sən ey yağış, əsmə ey külək,
Çünki yatanlar var torpaq altında.
Yaradan bizlərə eyləsin kömək,
Yatırlar torpağın dərin qatında.

Şəhidlər uyuyur həmən məkanda,
Qorxuram onlara soyuq olacaq.
Elə ki yağış, qar yağır o anda,
Məzarlar nəm çəkib, suyla dolacaq.

Yağma sən, ey yağış, əsmə ey külək,
Bizləri aldadıb gəlmə sən kələk.
Yağış yağan zaman elə bil inan,
Başıma tökülür mənim həmin an.

## Olmasaydı bu dərd, azar

Asta - asta, aram- aram,
Dərd əlindən qopub yaram.
Harda çətin bir iş varsa,
Bilin orda mən də varam.

Fikir çəkir məni dara,
Rəngim olub tamam qara.
Bütün dərdlər mənlə gedir,
Mən getsəm də indi hara.

İsti qara dəyən zaman,
Suya dönər elə o an.
Suya dönən o, qar mənəm,
Dərd əlindən yanıb sinəm.

Əriyirəm dərd əlindən,
Qəm tökülür hər telimdən.
Kaş qopaydı güclü tufan,
Aparaydı dərdi o an.

Tufan alsın kədərimi,
Qoy düzəltsin qədərimi.
Olmasaydı bu dərd, azar,
Yaşamağa onda nə var?

# Odlanaram

Mən bir dəli- divanəyəm,
Eşq əlindən viranəyəm.
İnan ki, sənin dərdindən,
Tir-tir əsən bir nanəyəm.

Ürək əsir nanə kimi,
Bəs nə edim mən biçarə?
Bura yığsaq hər həkimi,
Edə bilməz mənə çarə.

Gəl yandırma dərdli canı.
Bax cavab ver bu eşqimə.
Bu dərdimin ol dərmanı,
Dönüb baxma sən heç kimə.

Odlanaram bil ki, inan,
Başqasına baxsan əgər.
Həmin anda, həmin zaman,
Bu məhəbbət nəyə dəyər?

## Ana harayı

O, qara gözlərin bənzər özümə.
Baxıram dünyaya sənin gözünlə.
Sən nursan, çıraqsan, oğlum gözümə,
Mən qürur duyuram hər an özünlə.

Döyünən ürəyim, coşan qanımsan,
Qurban olsun anan bütün anına.
Hər şeydən əzizsən, mənim canımsan!
Dəyməsin yaradan sənin canına.

Qorudum mən səni əsən küləkdən,
Dərdini çəkmişəm hər an ürəkdən.
Sənin ayağına dəysə xırda daş,
Bil ki, ürəyimə girəcək bir baş.

Yaradan bəxş etsin səni özümə,
Aləmə yayılıb ana harayı.
Nur edim, ay oğlum yenə gözümə,
Qəlbimdə qurmusan övlad sarayı.

## Qış gəlibdi

Gəl ikimiz deyək, gülək.
Qışda gedək Şah dağına.
Birlikdə də yemək yeyək,
Yayda çıxaq yaylağına.

Qar tökülür narın-narın,
Göydən sanki nur ələnir.
Ləzzəti var qışda qarın.
Hər tərəfə səpələnir.

Parıldayır qar dənəsi,
Soyuq olur hər yan necə.
Bir ulduzdur lap hərəsi,
Buz bağlayır yollar gecə.

Sakit hava, ətraf işıq,
Qartopu oynayır hamı.
Qardan adam bir yaraşıq,
Sürüşdürür buz adamı.

Qalxır göyə gülüş səsi,
Ləzzət edir bu da bizə.
Sevindurir qar hər kəsi,
Qış gəlibdi elimizə.

## Heç kimə qalmayır

Gör necə yaradıb yaradan bizi,
Qonaq tək alırıq hər yerdə nəfəs.
Qonaq evi edib öz evimizi,
Ölümsüz deyildi dünyada heç kəs.

Nə zaman məsləhət görsə yaradan,
Tərk edib gedirik biz evimizi.
Köç edib çıxırıq onda aradan,
Heç bir şey dünyada saxlamız bizi.

Qonaq olduğunu bilsə də insan,
Bu dünya durduqca sanki duracaq.
İstəmir o haqda düşünsün bir an,
Dünyanı yenidən bir də quracaq.

Şirindi yaşamaq, gözəldi həyat,
Dünyaya bir dəfə gəlir hər insan.
Ölümdür dünyada hər şeydən bərbad,
Heç kimə qalmayır bu dünya inan.

## Olam gözün

Vurulmuşam sözlərinə,
Gözlərimdə şimşək çaxır.
Aşiq oldum gözlərinə,
O gözlər ki, mənə baxır.

Kaş bir ovuc yaş olaydım,
Seyr edəndə bax hər yanı.
Gözlərinə mən dolaydım,
Hey görəydin bu Rənanı.

Həkk olubsan al qanıma,
Ürəyimdə qurdun saray.
Yayılıbsan sən canıma,
Bu dünyaya saldım haray.

Eşit mənim haqq səsimi,
Düşünəsən bəlkə özün.
Oxu sevgi nəğməsini.
İstəyirəm olam gözün.

## Sənsiz

Dəli könlüm yenə coşur.
Dəniz kimi çağlayacam.
Sənə şeir, nəğmə qoşur,
Vallah indi ağlayacam.

Sənsiz yoxdur güzaranım,
Bil ki, deyim hər an yenə.
Dadsız keçir hər bir anım,
Dünya sənlə xoşdu mənə.

Hey düşürsən sən yadıma,
Sənsiz dünya mənə dardı.
Heç nə çatmır imdadıma,
İsti bahar boran, qardı.

Xatirələr məni üzür,
Sənsiz könlüm buz bağıayır.
Qəm, kədəri qəlbə düzür,
Gecə-gündüz hey ağıayır.

Qarlı qışam bil ki, sənsiz.
Ürək coşub edir tuğyan.
Güllər küsər göy çəmənsiz.
Səninləyəm sanki hər an.

## Sus, danışma

Od tutubdu indi cahan.
Alovlanır Quba, Xaçmaz.
Çıtır-çıtır yanır bu an,
Heç kim bundan heç baş açmaz.

Orda verir canlılar can,
Fövqaladə yanır düzü.
Baxan yoxdu nədir yanan,
Söndürərdi yoxsa özü.

Deyirlər ki, sus, danışma!
Neynəyirsən kim nə edib?
Heç bir şeyə sən qarışma,
Fövqalədə işə gedib.

Xəbər tutar bundan əri,
Tez pozular abu - hava.
Dağıdarsan çox evləri,
Evlərinə düşər dava.

Çoxdu bunun bax acısı,
Çox pis olar işin sonu.
Ərdə olan var bacısı,
Boşayarlar onda onu.

Susun, kimsə danışmasın!
Gör nə günə düşüb zaman?
İşə heç kim qarışmasın,
Nə düşünür indi insan?

Anlamadım bir şeyi mən,
Heç baxmayır aza-çoxa.
Harda qalıb əxlaq görən,
Namus niyə çıxıb yoxa?

## Tabutda gedən sən olma

Ömür çox qısadır, dünya vəfasız,
Bu gündən sabaha qalmayıb güman.
Zaman da olubdu çox etibarsız,
Əcəl astanada dayanır hər an.

Dünən hökum verən bu gün verir can,
Düşünüb baxıram o yan, bu yana.
Əzrayıl keçməyir heç kimsədən yan,
Bu dünya qalmadı heç Süleymana.

Gedir məzarlığa insan karvanı,
Başına qoysan da qızıldan tacı.
Tabutda aparır ölən insanı,
Dünyada ölümün yoxdu əlacı.

Tabutun önündən, ya arxasından,
Çalış ki, tabutda gedən sən olma.
Lap tutub gedərsən yan taxtasından.
Bu zaman kövrəlmə, kədərlə dolma.

## Yaxşı ki, varam

Yaxşı ki, dünyaya gəlmişəm özüm!
Sizlərə tuturam indi üzümü.
Bilmirəm düzdümü, doğrumu sözüm,
Bəlkə aldadıram özüm özümü?

Baxıram dünyaya, düzə, çəmənə,
Beynimdə suallar dolanır yenə.
Özümdən razılıq eylədim yaman.
Haqqımda bunları söylədi Mehman:

"Demə daha qocalmışam!
De: Dünyadan öc almışam!
Seirimlə, dəyərimlə,
Könüllərdə ucalmışam!"

O zaman yaşamaq dünyaya dəyər!
Fəxrlə deyirəm mən aram-aram.
Bu tərifə layiqəmsə bax əgər,
Deməli yaxşı ki, sizlərlə varam!

## Sən dön özümə

Gəzirəm hər yerdə kefsiz, bir təhər,
Çəkdiyim həsrətim olduqca ağır.
Elə bil havadan tökülür zəhər,
Havadan həm yağış, həm kədər yağır.

Sanki yağan yağış yağır belimə,
Yoxluğun üşüdür, yenə də məni.
Kədərlə baxıram doğma elimə,
Gözlərim axtarır hər yanda səni.

Sən ərşə çəkmisən şirin röyamı,
Leyli tək gəzirəm, deyim düzünü.
Özünlə apardın sənli dünyamı,
Kaş görə biləydim bir gün üzünü.

Küsməyin olubdur ölümdən betər,
Günləri sayıram, sən dön özümə.
Bu qədər naz etmək mənə də yetər,
Məcnun tək yenə bax mənim gözümə.

## Əzrayıl

Bezdim Əzrayılın mən vərdişindən,
Vəfasız dünyanın bütün işindən.
İstəyir şah olsun, ya da ki, nökər,
Gördüyü günləri burnundan tökər.

Əzrayıl hamının qəsdinə durur,
Baxmayır körpəyə, nə də cavana.
Fürsət tapan kimi boynunu vurur,
Yazığı gəlməyir bircə insana.

Baxmayır kimsənin o, göz yaşına,
İnsanın əməli qalır dünyada.
Şəklini döydürür tez baş daşına,
İnsan sahiblənir layiqli ada.

Yaxşılar sağ ikən qazanır rəhmət.
Pislərə deyirlər həmişə lənət.
Əzrayıl özünü heç vaxt öyməsin,
Nə də ki, qapını vaxtsız döyməsin.

## Sevgi sarayı

Qəlbimdə qurmusan eşq sarayını,
Sənsiz dəli könlüm olubdu viran.
Anladın qəlbimin sən harayını,
Səninçün titrəyir ürəyim hər an.

Səpdin ürəyimə sevgi toxumu,
Eşqin qığılcımı düşüb qanıma.
Sən ərşə çəkmisən mənim yuxumu.
Zəli tək yapışıb sanki canıma.

Dinlə bir qəlbimdən qopan harayı,
Dərdimin səndədi indi dərmanı.
Qoyma ki, dağılsın sevgi sarayı.
İmza at, verginən sevgi fərmanı.

Fikrimdən dönmərəm heç zaman qəti,
Sən oxu atmısan, gizlətmə yayı.
Qoruyaq bu ülvü, saf məhəbbəti,
Saxlayaq yaradan verən bu payı.

## Məhəbbətdir adı

Mən dərdin əlindən oldum divanə,
Atəşin yandırıb məni kül etdi.
Od düşüb könlümü etdi viranə,
Alovlar könlümü götürüb getdi.

Sanki mən itmişəm dumanda, çəndə,
Bircə yol diqqətlə sən bax gözümə.
Yaralı ürəyim qalıbdı səndə,
Qaytar ürəyimi, qaytar özümə.

İsinə bilmədim sənin istinə,
Nə olar, gəl eşit sən diləyimi.
Amma ki, kor oldum qara tüstünə,
Sevindir mənim də bu ürəyimi.

Qəlbimiz birlikdə qoy atsın qoşa,
O zaman gözəldir, həyatın dadı.
Könüllər birləşib gəlsinlər cuşa,
Məhəbbət qoyulub bu hissin adı!

# Qızılgül

Sevdim qızıl gülü, güllər içində,
Gözəldir rənginin hər bir çaları.
Onun tək gül yoxdu heç bu biçimdə,
Olduqca sevirəm mən də onları.

Sırayla düzülüb ləçəklər bir-bir,
Vuruldum mən gülün gözəl ətrinə.
Üst-üstə keçərək olublar əlbir,
Sevirəm onları ətrin xətrinə.

Güllərin şahıdır, gözəl qızılgül!
Qızıl gül bəzəyir bağçanı-bağı.
Onların eşqiylə oxuyur bülbül,
Bizə qonaq gəlir hər bahar çağı.

Rəngləri həmişə oxşayır gözü,
Sədası hər yanı gəzib, dolaşır.
Ətirli qoxuyla məhşurdur özü,
Adı da özünə gözəl yaraşır.

## Demərəm dön geri

Son dəfə evindən çıxdığın gündür,
Bir daha o gündən dönmədin geri.
İşıqlı dünyanı yıxdığın gündür.
Sənsizlik yandırdı bütün hər yeri.

Yoxluğun yarını yandırıb-yaxdı,
Sel oldu gözündən tökülən yaşı.
Bir ildir getdiyin o yola baxdı,
Sənsiz nələr çəkdi biləydin başı.

Yolunu gözləyir hər axşam- səhər,
İşıqlı bu dünya olubdu zindan.
Gizlicə ağlayır, hey boğur qəhər,
Gözüylə axtarır səni anbaan.

Demərəm dön geri, qayıt evinə.
Bu yarın yalandan bir az sevinə.
Özümü qoymayım mən də bilməzə.
Çünki sən getmisən gedər - gəlməzə.

## Qaça bilməzsən

Biləsən, hər zaman sən yanımdasan.
Damarımda gəzən al qanımdasan.
Mənim ürəyimdə, düz canımdasan,
Anla ki, sən məndən qaça bilməzsən!

Mənə lazım deyil nə iynə, nə sap,
Hopmusan sən mənim ürəyimə lap,
Özünü axtarsan gəl özümdə tap,
Anla ki, sən məndən qaça bilməzsən.

Gözünə baxanda anladım hər an,
Qəlbində salmışam mən də bir məkan,
Səninlə fəxr etdim, əzizim inan!
Anladım, sən məndən qaça bilməzsən!

## Qoruyun məhəbbəti

Gözəlsən, ay qızım qızlar içində,
Çox qəşəng yaratmış səni yaradan.
Mən gözəl görmədim bax bu biçimdə,
Yarınçün doğuldun, vallah anadan.

Gündüzlər günəşsən, gecələr aysan!
Rəngini ağappaq qardan almısan.
Dünyada yarına ən gözəl paysan!
Yarının qəlbinə sən od salmısan.

Səninçün ürəyi alışdı, yandı,
Ürəkdən sevdiyi qızın özüsən!
Özünü elə bil o, Məcnun sandı,
Sən onun ürəyi, görən gözüsən.

Bir ömür boyunca yaşayın qoşa,
Bizlər alqışlayaq bu həqiqəti.
Qoy sevən ürəklər gəlsinlər cuşa,
Siz isə qoruyun saf məhəbbəti.

# Son zəngdir

Doğmadır yurdumun küncü, bucağı.
Məktəblər bəzəyir bütün elləri.
İnkişaf eyləyib təhsil ocağı.
Yaddaşdan silinməz məktəb illəri.

Müəllim işlədim illərdir özüm.
Şagirdə açmışam mən qucağımı.
Bu gün var hər kəsə deyəcək sözüm,
Qəlblərdə qaladım elm ocağımı.

Sevmişəm şagirdi öz balam kimi,
Cürbəcür sənətə sahib olublar.
Yüzlərlə yetirdim mən el həkimi,
Mələk tək qəlbimə bir-bir dolublar.

Son zəngdir, bu gündə məktəbdə yenə,
Ana tək sevirəm hər birinizi.
Əlvida söyləyir şagirdlər mənə,
Yaddan çıxartmayın heç zaman bizi.
Uğur diləyirəm, uşaqlar sizə!
Müjdələr, müjdələr gətirin bizə.

# İnsanlar cürbəcür olur

İnsanın qəlbini qırma heç zaman.
Şüşəyə bənzəyir hər bir qəlb inan.
Elə ki, qırıldı, sındısa şüşə.
Düşərsən o zaman çox müşgül işə.

Düzəldə bilməzsən onu heç zaman.
Şüşə tək qəlbi də qüzəltmək olmur.
Ondakı o çatlar görünər hər an,
Əvvəl ki, etibar qəlbinə dolmur.

İnsanlar çürbəcür olur həyatda,
Kimisi mehriban, istiqanlıdır.
Əməliylə qalır hər biri yadda,
Kimisi qoçaqdır, igid canlıdır.

İnsandır dünyada qurub - yaradan.
Bəzisi qorxaqdır, bəzisi yaltaq.
İnsandır insanın dayağı hər an,
Bəzisi olurlar pis işə ortaq.

Hər şeyə qadirdir onların özü.
İnsanlar, qoruyun bir-birinizi!
Yaxşını, pisi də ayırır gözü,
Qalacaq həyatda hər kəsin izi.

## İki il keçdi

Su kimi gör necə ötüşür zaman,
İki il keçibdi aradan bu an.
Döyüşlər başladı Tovuz elindən.
Qarabağ alındı düşmən əlindən.

Düşmənə vermədik bircə an aman.
Vətənin uğrunda getdi canları.
Nər kimi oğullar itirdik inan,
Unuda bilmərik həmin anları.

İlk şəhid general Həşimov Polad!
Tarixə yazıldı ömürlük bu ad.
Poladla birlikdə köç etdi İlqar.
O zaman dünyamız oldu bizə dar.

Həmin gün itirdik nə qədər mərdi.
Vətənin dərdiydi hamının dərdi.
Bu qədər şəhidlər bax ola-ola.
Qarabağ uğrunda biz çıxdıq yola.

İki il keçibdi həmin o andan!
Yenidən tarixi yazdıq biz qandan.
Unuda bilmərik heç şəhidləri.
Bizim ürəyimiz oldu yerləri!

## Son aqibətin

Elə ki, dünyaya göz açır insan,
Cahana nur yağır elə bil o an.
Həyat həm şirindir, həm də ki, acı.
Hər kəsə verilmir şahlığın tacı!

Kiminin dövləti başından aşır.
Pulun bolluğundan yolunu çaşır.
Kimi də tapmayır bir parça çörək,
Sabah nə olacaq heç bilmir görək!

Hey pulun dalınca yüyürür insan,
Qaçdıqca qaçırsan çata bilmirsən.
Sanki pul atlıdır elə həmən an,
Fikirdən gecələr yata bilmirsən.

Əzabla böyüyür, dolanır insan,
Başına gələni bilməyir bir an.
İstər yaxşı yaşa, istərsə çətin.
Məzarda bitəcək son aqibətin.

## Səni yüz yaşa

Dağların üstünə dağı qoymusan.
Zəhmətlə gəlmisən indi bu yaşa.
Çörəyi dişinlə daşdan oymusan,
Deyirəm, ay kişi səni yüz yaşa.

Əzablı yollardan gəlib keçmisən,
Tikdiyin binalar verib baş-başa.
Binalar tikməyi özün seçmisən,
Deyirəm, ay kişi səni yüz yaşa.

Ehtiyac duyursan kərpicə, daşa
Sən dayaq olmusan qohum-qardaşa.
Ürəklə deyirəm indi bir başa,
Ey həyat yoldaşım, səni yüz yaşa.

Var sənin saldığın bağçalı bağlar,
Xoş getdin deyirik indiki yaşa.
Yolunu gözləyir evdə uşaqlar,
Əzizim, ay kişi səni yüz yaşa!

## Axır qəmin olsun

Qardaşın yerini verəmməz heç kəs,
Onunla alarsan hər zaman nəfəs.
Elə ki, köç etdi qardaş dünyadan,
Nəfəsin dayanır sanki həmin an.

Qardaş ürəyinin şah damarıdır!
Atanın dövləti, həm də varıdır!
İtirdin ananın yadigarını.
Yengənin sevimli, əziz yarını.

Axtarma, ay bacı bir daha onu.
Vəfasız dünyanın belədir sonu.
Gözlərin tikilər gəldiyi yola.
Deyərsən, ay Allah gələn o ola.

Qoy deyim mən sənə sözün düzünü,
Bir daha görməzsən onun üzünü.
Özünü aldatma, qoyma bilməzə,
Çünki o, gedibdi gedər gəlməzə.

Qardaşın cənnətdir orda məkanı.
Dönüb xatirəyə artıq hər anı.
Yaradan verməsin bir daha acı,
Axır qəmin olsun sənin, ay bacı.

## Sənin günündür

Həyat ilmələrdən çələng toxuyur!
Çələngin gülləri ətir qoxuyur,
Bülbüllər nəğməni sənə oxuyur,
Gözəlim, bax bu gün sənin günündür!

Sənin bu çələngin tacdı başına,
Gözəllik gətirir hər il yaşına,
Qurbanam mən sənin o, göz - qaşına.
Şəhanəm, bax bu gün sənin günündür!

On beşi iyunda açdın gözünü,
Anana hədiyyə etdin özünü,
Gözəl bir övlad tək dedin sözünü.
Şəhanəm, bax bu gün sənin günündür!

Qoy ömür yolların gül-çiçək açsın,
Sevgin ürəyinə gur işıq saçsın,
Dərd- bəlan yox olsun, səndən gen qaçsın,
Şəhanəm, bax bu gün sənin günündür!

## Fərqanə qızım

Sən ömrümün bəzəyisən!
Gözəl qönçə çiçəyisən!
Öz ananın ürəyisən,
Ay mənim Fərqanə qızım!

Bəxş elədin nur gözlərə,
Təbbəsüm verdin üzlərə,
Layiqsən sən xoş sözlərə,
Ay mənim Fərqanə qızım!

Günəş kimi sən nurlusan,
Həm məğrursan, qürurlusan,
Ayağı çox uğurlusan,
Ay mənim Fərqanə qızım!

Sən ömrümün baharısan,
Sevdamın ilk nübarısan,
Həm fəxrim, həm vüqarımsan.
Ay mənim Fərqanə qızım.

## Nə yaxşı ki, varımsan

Ətirli bir gülsən özün!
Baldan şirin hər bir sözün,
Piyalədir gözəl gözün,
Nə yaxşı ki, bax varımsan!

Sən oğlumun başda tacı,
Qızlarıma əziz bacı,
Görməyəsən heç vaxt acı,
Dövlətimsən, həm varımsan!

Yer üzünün mələyisən!
Sən oğlumun diləyisən!
Onun vuran ürəyisən,
Mənim şirin nübarımsan!

Həm günəşsən, həm də aysan,
Qardaş verən şirin paysan,
Mələklərə özün taysan,
Nə yaxşı ki, sən varımsan!

## Oğlum

Saçına dən düşüb, ağarıb basin,
İllər ötdükcə də artacaq yaşın,
Qurbanam, ay oğlum özüm özünə,
Vurğunam mən sənin qara gözünə.

Gözlərin dəryadı sanki dənizdi,
Bulağın suyu tək qəlbin təmizdi,
Bax səndən almışam ilhamı hər an,
Yaxşı ki, olmuşam mən sənin anan!

Anana dayaqsan, arxasan oğlum!
Sən mənim ömrümə mayaqsan, oğlum!
Ömür yollarımı nura bələdin,
Həmişə başımdan sevinc ələdin.

İşıqlı olsun qoy ömür yolların
Dolansın boynuma hər an qolların,
Könlümdə qurubsan övlad taxtını,
Mələklər çox gözəl yazsın baxtını.

Ən gözəl meyvədir dünyada övlad,
Eşqdən yaranıbdı çünki həmin ad,
Yaradan qorusun onları hər an,
Sənə qurban olsun, ay oğlum anan!

## Zabitin yaşı

Ey mənim ağıllı, mehriban balam!
Sən mənim balamın ilk nübarısan.
Səninlə birlikdə həmişə varam,
Ananın dövləti, həm də varısan.

Səninlə fəxr edir, qürurlanırıq,
Sən görən gözümsən, duyan ürəyim.
Biz sənə güvənir, çox inanırıq,
Bilirsən keçibdir sənə əməyim.

Çəkdiyim zəhmətim halaldır sənə,
Yaradan qorusun səni hər zaman!
Həmişə sən qürur yaşatdın mənə,
Bəhrəni görsünlər atan və anan.

Bir yaş da artıbdı bax bu gün yaşın,
Öpürük biz sənin qara gözündən.
Təbrik edir səni bacın, qardaşın,
Muğayət ol, Zabit, hər an özündən.

Nənənin unutma heç vaxt sözünü,
Hər zaman arzudan arzular doğur.
Yad eldə həmişə qoru özünü,
Qoy sənə bu yaşın gətirsin uğur!

## Dünya fanidir

Necə də pis gəlir il üstünə il,
Yanğınlar baş alıb gedir hər anda.
Dünya dağılacaq sanki elə bil,
Sabaha ümid yox, daha insanda.

Aləmi dağıdır birdən zəlzələ,
Bir də görürsən ki, püskürür vulkan.
İnsanlar içinə düşür vəlvələ,
Göydən alov yağır sanki həmin an.

Gah da ki, aləmi dağıdır tufan,
Hər yanı dağıdır bu külək, bu yel.
Heç bilmir neynəsin insanlar inan,
Evləri aparır bir də gördün sel.

Əzrayıl heç kəsə verməyir aman.
Əzrayıl tanımır nə əmi, dayı.
İnsanla birlikdə dolanır hər an,
İndi çox artbdı ölümün sayı.

Fəlakət dünyada sanki hökm edir,
Bu dünya fanidir, fanidən fanı.
Həyat öz yoluyla yenə də gedir,
Əzrayıl can alan peşəkar cani.

## İncitmə məni

Vurğunam göz – qaşına,
Mən dolanım başına,
Rəhm eylə göz yaşıma,
Gəl incitmə sən məni.

Gecə- gündüz ağlaram,
Qəlbimə daş bağlaram,
Leysan kimi çağlaram,
Gəl incitmə sən məni.

Hey baxaram yoluna,
Nəzər sal sağ - soluna,
Bax məni tax qoluna,
Gəl incitmə sən məni.

Tufan olub əsərəm,
Yollarını kəsərəm,
Sən gəlməsən küsərəm,
Gəl incitmə bax məni.

## Səninlə gözəldir

Gəl mənim dünyamı eyləmə qara,
Mənimçün günəşsən, ay oğlum, aysan!
Xəyalın mənlədir, mən getsəm hara,
Ömrümə yazılan ən gözəl paysan!

Səninlə alıram hər bir an nəfəs,
O quru nəfəsin isidir məni.
Dünyada yerini verəmməz heç kəs,
Özümə bəxş edib yaradan səni.

Ay oğlum, möhkəm tut mənim əlimi.
Əlinlə sil mənim bu göz yaşımı.
Uzun et hər zaman, hər an dilimi,
Sinəmə əyməyə qoyma başımı.

Bilirsən çətindir, çətindən çətin.
Hər zaman deyirəm mən dönə - dönə.
Ananı çox üzür sənin həsrətin,
Səninlə gözəldir bu aləm yenə.

## Otuz beş il ötür

Mən yaman düşmüşəm, yaman bir dara.
Mənimlə bir gedir qəmim, kədərim.
Bu geniş dünyada bax gedim hara?
Təlaşla boylanır nəmli gözlərim.

Otuz beş il ötür qanlı yanvardan,
Cəlladlar Bakıya doldu o gecə.
Şəhidlər çıxmayır bir an da yaddan.
Vəhşilik törətdi şəhərdə necə.

Güllə-boran etdi onlar hər yanı,
Tanklar insanların üstündən keçdi.
Yerlərlə bir oldu hər kəsin qanı,
Önünə keçəni tez hədəf seçdi.

Cəlladlar insanlıq yolunu azdı,
O gecə şəhidlər bir tarıx yazdı.
Bizlərə yazıldı belə bir qədər,
Bizimlə bir gedir hər yerə kədər.

O gündən həmin an elə birbaşa,
Hər zaman hamının gözlərində yaş.
Bu tarix həkk oldu bizim yaddaşa,
Şəhidlər önündə biz əyirik baş.

## Unuda bilməzsən

Bəzən xatirələr olsa da açı,
Yenə xatırlamaq xoş olur, bacı.
Bilirəm düşübdür başından tacı,
Sənə qurban olsun bax bu mən bacın.

Görürəm çətindir, çətindən çətin,
Hər şeyin bilirsən sən qədərini.
Bir az dözümlü ol, bir az da mətin,
Unuda biləydin kaş kədərini.

Onunla bir getdi ağzının dadı,
O gözəl qəlbində qurubdu yuva.
Sevgidir bu şirin meyvənin adı,
Yaxşı tanıyırdı onu el, oba.

Həyatda hər şeyin olur bir sonu,
Yenə təbrik elə hər il yaşını.
Unuda bilməzsən heç zaman onu,
Onunla fəxr elə, dik tut başını.

## Hökümə

Azəri qızların olmayır tayı,
Ətirli qönçədir hər evdə açır.
Yaradan bəxş edib bizə bu payı,
Günəştək aləmə onlar nur saçır.

Bunlardan biridir Hökümə özü,
Anlayırdı bura qanla dolacaq.
Dünyayla bir oldu dediyi sözü,
Deyirdi, qorxmayın yaxşı olacaq.

Qəzada baxırdı hamı gözünə,
Hər kəs güvənirdi onun sözünə.
Bütün insanları sakit edirdi,
Ancaq anlayırdı hara gedirdi.

Əcəllə birlikdə yanbayan durdu,
Alovlar bürüdü onun özünü.
Tarixə igidtək möhrünü vurdu,
Əbədi olaraq yumdu gözünü.

Ey igid, qəhrəman, ey gözəl qadın,
Səninçün tökülür bu gözlərdən yaş.
Tarixə yazıldı bir yolluq adın,
Ruhunun önündə biz əyirik baş.

# Ölümün dadı

Qurbanam, ay ana dərdli gözünə,
Zəhmətlə, zülümlə böyütdün onu.
Dünyada oğulsuz qalan özünə,
Gör necə qurtardı bu işin sonu?

Sən ona tikmişdin indi gözünü,
Oğlunu vuranın qırılsın bəli.
Ancaq tez itirdin onun özünü,
Telini darasın əcəlin yeli.

Kaş o da dadaydı övlad dağını,
Dibindən qurusun özünün əli.
Sənin tək söyləsin görüm ağını,
Şal kimi yanaydı ağzında dili.

Fəxirlə, ay ana dik tut başını,
Ürəklə söyləyib deyirəm ki, mən.
Bir daha ağlama, sil göz yaşını.
Qəhrəman bir oğul böyütmüsən sən.

Acıdır ölümün acıdır dadı,
Səninlə birgədir bütün xalqımız.
Oğlunun tarixə düşəcək adı,
Ürəkdən sevirik onu hamımız.

## Yandırır məni

Hərdən danışıram, xəfif gülürəm,
O məsum baxışlar yandırır məni.
Yadıma düşəndə sanki ölürəm,
Lənətə gələydi həmin düşməni.

Qurbanam günahsız baxan gözünə,
Əzrayıl yolunu saldı yanından.
Ölümdən xəbərsiz olan özünə,
Ordaca eylədi səni canından.

O şirin canını əlindən aldı,
Qurbanam mən sənin qorxan canına.
Bütün arzuların yarımçıq qaldı,
Əlacsız, tək qalan hər bir anına.

Xəyalın getməyir heç vaxt gözümdən,
Mələklər çataydı kaş ki, dadına.
Əl çəkə bilmirəm nə də özündən,
Ölüm yaraşmayır çünki adına.

Yandırır bu ölüm yandırır məni,
Kor olub mələklər həmin o anda.
Gərək tutaydımı təklikdə səni?
Bəs niyə görmədi səni yananda?

## Xədicə, Əli

Yandırdı bu qəza bütün hər kəsi,
Çarəsiz insanlar darda qaldılar.
Dünyayla bir oldu sədası-səsi,
Qəfildən çox güclü zərbə aldılar.

Bu xəbər yayıldı olduqca acı,
Həlak olmuşdular Xədicə, Əli.
Qəzada varıydı qardaşla, bacı.
Xəbəri eşidən olurdu dəli.

Atasız, anasız bu bacı-qardaş,
İllərdi yetimlər tək yaşıyırdı.
Xəbərsiz gedirdi xaricə bir baş,
Dünyanın dərdini bir daşıyırdı.

Atmaq istədilər qəmi, kədəri,
Əzrayıl onları tutdu son anda.
Yaradan yazmışdı artıq qədəri,
Kənardan baxırdı onlar yananda.

Dərd-qəmlə birlikdə onlar alışdı,
Onlar bu həyata vida etdilər.
Alova bürünüb, oda qarışdı,
Zülümlü dünyadan köçüb getdilər.

## Qəsdinizə kimlər durdu

Siz səmada alışdınız
Yox olaydı həmin anlar.
Alovlara qarışdınız,
Qəza aldı neçə canlar.

Qəsdinizə kimlər durdu?
Parça-parça oldu ürək.
Axı sizi niyə vurdu?
Bu dərdlərə necə dözək?

Çox cəsurdur Höküməmiz.
Dikilibdir ona gözlər.
Unutmarıq heç onu biz.
Orda bitib artıq sözlər.

Sakit edir hər bir kəsi.
Bir partlama səsi gəlir.
Tir-tir əsir onun səsi.
Ürəkləri qorxu dəlir.

Ah-nalələr ərşə qalxır,
Göy çatlayır, qopur tufan.
Yaş gözlərdən sel tək axır,
Əcəl alır nə qədər can.

Pilot deyir öz sözünü.
Qurban edir o, özünü.
Hökümənin susur səsi.
Artıq gəlmir heç nəfəsi.

Həmi yaşlı, həmi cavan.
Ölüb getdi bir çox insan.
Kaş səbəkar odda yana,
Çünki qıydı neçə cana.

## Sənlik deyil ölüm

Nə baxırsan gülə-gülə?
Gül ətirli, gözəl gülüm.
Yandı bağrım döndü külə,
Sənlik deyil axı ölüm.

Həm körpəsən, həm mələksən.
Necə oldu bəs alışdın?
Sən döyünən bir ürəksən,
Alovlara tez qarışdın.

Sən deyilsən orda yanan,
Sənin çətin o anında.
Ürəyimdir, bil ki, inan.
Kaş olaydım mən yanında.

Bircə ovuc su olaydım.
Göydən yerə ələnərdim.
Bulud kimi mən dolaydım,
Od- alova bələnərdim.

Yoxdu daha vallah sözüm.
Kaş yanaydım orda özüm.

## Fani dünya

İndi verək biz əl-ələ,
Seyr eləyək hər bir yanı.
Gedək gəzək eldən - elə,
İtirməyək bircə anı.

Əbədidir bu dünyamız,
Bir gün gələn bir gün gedir.
Bax qonağıq biz hamımız,
Bu dünyanı o, tərk edir.

Hər bir anın qədrini bil,
Zəhərləmə heç bir kəsi.
Qoy xoş sözlər söyləsin dil,
Hey ucalsın haqqın səsi.

Arxadadır dünənimiz,
Sabah isə gələcəkdir.
Yaşayırıq bu günü biz,
Üzümüzə güləcəkdir.

Bu dünyanın xoşdur dadı,
O, hamını yola salır.
Fani dünya qalıb adı,
Əbədidir, özü qalır.

## Ver özümə

Qəfəsdəki bülbüləm mən,
Kefsiz-kefsiz dolanıram.
Susuz qalmış bir güləm mən,
Bil ki, səni hey anıram.

Sənsiz gəzdim bağça, bağı,
Geniş düzlər, göy çəmənlik.
Seyr elədim uca dağı,
Heç birisi deyil mənlik.

Əl çəkməyir məndən kədər,
Ürəyimi özün aldı.
Sənsiz gəzim bax nə qədər?
Məni dağa, daşa saldın.

Lazım deyil bəlkə sənə?
Ürəyimi ver özümə.
Onda onu qaytar mənə.
Gəl dürüst ol, bax gözümə.

## Anan ölməzdi

Bir gün baxacaqsan bütün hər yana,
Bir kədər düşəcək o şirin cana,
Onda deyəcəksən, hardasan ana?
Dünya bir yanadır, sən də bir yana.

Axtarıb gəzərsən hey otağını,
Görəcəksən itib onun həniri.
Onsuz görəcəksən boş yatağını,
Evdən kəsiləcək səsi-səmiri.

O zaman kövrəlib qəti ağlama,
Biləcəksən onda verilib fərman.
Heç zaman başına qara bağlama,
Sizləri tərk edib, gedibdir anan.

Analı günlərin başqadır dadı,
Ana müqəddəsdir, ana əzizdir.
Qəlbinə yazılıb ömürlük adı,
Fikirləş bax indi o, da sənsizdi.

İstəməzdi səni tərk edib getsin,
Heç zaman o, sənsiz qala bilməzdi.
Əcəl aparıbdı, axı nə etsin?
Əlacı olsaydı anan ölməzdi.

## Sirli gecə

Bilmirəm nə olub bu axşam yenə?
Mən fikrə dalmışam, xəyal etmişəm.
Köhnə xatirələr üz tutub mənə,
Xəyallar içində batıb getmişəm.

Yağışlı bir hava ildırım çaxır,
Bu anda güclü bir külək də qopur.
Kədərlə buludlar göylərdən baxır,
Göydən düşən yağış yerlərə hopur.

Külək qarışdırır həyət, bacanı,
Yaddaşa həkk olur bu gördüklərim.
Gözlər lentə alır sanki o anı,
Soyuqdan titrəyir, əsir əllərim.

Bu sirli gecədən mən həzz almışam,
Köhnə xatirələr turub əl-ələ.
Xəyallar içində donub qalmışam,
Mənimlə birlikdə fırlanır hələ.

## Qarın ləzzəti

Bu dəli könlümə qar düşüb yaman,
İstəyirəm göylərdən qar ələnsin.
Onu gözləyirəm, yağaydı hər an,
Hər tərəf parlayan nura bələnsin.

Ağappaq örpəyə bürünə hər yan,
Sakitcə yağaydı qar aram-aram.
Özümü sakitcə ataram inan,
Həmin an o qarın içində varam.

Bax onda bataram dizəcən qara,
Mən qışı sevirəm qar yağanda.
Getdikcə gedərəm lap uzaqlara,
Qışın da ləzzəti ordadır onda.

## İnsan ömrü

İnsan ömrü sanki sirli saraydı,
Talelər yazılır ağlı, qaralı.
Bəxtləri onlara verilmiş paydı,
Kimi ağ günlüdür, kimi yaralı.

Hər ildə yaş üstə yenə gəlir yaş,
Kərpiclər tökülür saraydan bir – bir.
İnsanlar qocalır, həm ağarır baş,
Başqa bir tərəfdə tikilir qəbir.

İnsan ömrü sanki kitabdı bağlı,
Kitabda yazılıb tale nağılı.
O da vərəqlənir, hər gün oxunur,
Hər kəsin taleyi sanki toxunur.

Vərəqlər saralır, tökülür bir-bir,
İnsan ömrü bənzər bu dörd fəsilə.
Yenə də insanı gözləyir qəbir,
Gün günə calanır, illər də ilə.

Yazda çiçəklənir ömür gülləri,
Yay ömrün ən gözəl qızğın çağıdır.
Gül ətri bürüyür bütün elləri,
Payız da taleyin bolluq bağıdır.

## Bir dəfə verilir

Elə ki, yuxudan açdın gözünü,
Bax onda sükür et sən yaradana.
Hiss edib görürsən öncə özünü,
Minnətdar olarsan həmin o ana.

Deməli almayıb Allah canını,
Artıq sən yuxudan qalxıb, doymusan.
Coşdurub damarda axan qanını,
Yeni bir sabaha qədəm qoymusan.

Qədrini bilginən sən hər bir anın,
Həyatdan ləzzət al, çıxart dadını.
Qoy ağrı görməsin bu şirin canın,
Şərəflə, namusla qoru adını.

Bir dəfə verilir həyat insane,
Dua et, hər bir an alırsan nəfəs.
Ürəklə addımla o yan, bu yana,
Naşükür olmasın dünyada heç kəs.

## Sevgidir adı

Bu dünya bir heçdir sənsiz gözümdə,
Başqa bir aləmə məni ötürür.
Anlaya bilmirəm nədir özüm də?
Yoxluğun hər zaman kədər gətirir.

Elə bir aləm ki, yoxdur havası,
Ürəyim çırpınır, darıxır sənsiz.
Kəsilmir qəlbimin mənlə davası,
Sən necə dözürsən biləydim mənsiz?

Kaş tuta biləydim hər an əlindən,
İstərdim gözlərim baxsın gözünə.
Xoş sözlər axaydı şirin dilindən,
Sözümü deyəydim bir baş özünə.

Kədərlə baxıram mən öz yoluma,
O sənli günlərin başqadır dadı.
Kaş taxa biləydim səni qoluma,
Bu gözəl hislərin sevgidir adı.

# Yalan

Yalanla yoğrulub sənin təməlin,
Yalanın içində batırsan hər an.
Heç özün bilmirsən nədir əməlin,
Ancaq ayaq tutar, yeriməz yalan.

Gözəldir söyləmək sözün düzünü,
Yalan danışmağın mənası yoxdu.
Qızartma yalanla heç vaxt üzünü,
Əfsuslar olsun ki, yalançı coxdu.

İnsanı hörmətdən salandır yalan,
Heç zaman olmayır onun axırı.
Aləmi dağıdıb, qatandır hər an,
Sonunda açılır bir gün paxırı.

Ən gözəl adətdir doğru danışmaq,
Qoşadır həyada doğruyla, yalan.
Düzlüyə inanıb ona qarışmaq,
Baş alıb gedirlər birlikdə hər an.

## Qıfıl asılır

Ən gözəl ocaqdı ata ocağı,
Atasız, anasız olmur ləzzəti.
Dərdlərə məlhəmdi küncü, bucağı.
Oranın çəkilər hər an həsrəti.

Atalar evlərin dirəyidirlər,
Hər evin yükünü çəkəndi ana.
Həmişə övladın gərəyidirlər,
Kişi tək evləri tikəndi ana.

Hamını toplayır onlar başına,
Atanın, ananın ılıq nəfəsi.
Söz olmaz ananın heç vaxt aşına,
O evdə isidir bütün hər kəsi.

Elə ki, köç edir onlar dünyadan,
Onlarsız evlərin yoxdu ləzzəti.
Həmin ev soyuyur həmin o andan,
Sanki peç isitmir evləri qəti.

Sevinc də, şənlik də onlarla gedir.
Kədərlə, qəm ilə evlər basılır.
Sıxıcı bir hava orda hökm edir,
Nəhayət qapıdan qıfıl asılır.

## Danma məhəbbəti

Göstərib deyirlər çölü - çəməni,
Bir qızla görürlər, hər yerdə səni.
Söyləyə bilmirsən sən həqiqəti
Bəs niyə danırsan bu məhəbbəti?

Bilinir od düşüb sənin canına,
Qığılcım keçəcək bir gün qanına,
Deyirsən heç nədən qorxmuram qətı,
Bəs niyə danırsan bu məhəbbəti?

Gəl daşı tök yerə sən ətəyindən,
Çəkinmə heç kimin nə deməyindən.
Səndəndir hamının sözü-söhbəti,
Sən niyə danırsan bu məhəbbəti?

Utanma, əzizim qoy deyim yenə,
Göndər elçiləri bu axşam mənə.
Qoru sən həmişə abır, isməti,
Bir daha danma bax bu məhəbbəti.

## Qonağım olarmı

İstərəm gözümü mən yumub – açam,
Kaş dönə biləydim həmin illərə.
Coşaraq uşaqlıq ilinə qaçam,
Su kimi dolaydım mən könüllərə.

Necə də gözəldi anamın səsi!
Tutaydım anamın yenə əlindən.
Üzümə dəyəydi ılıq nəfəsi,
Adımı duyaydım onun dilindən.

Analı günlərim düşür yadıma,
Kaş görə biləydim o gül üzünü.
Ancaq heç çatmayır mənim dadıma,
Ürəyim istəyir onun özünü.

Heç zaman çıxmayır anam yadımdan,
Analı dünyamı axtarıram mən.
Mən doya bilmədim ana dadından,
Bircə gün qonağım olarmı görən?

## Dəyməyin qocalara

Allahım, nə olar eşit dilimdən,
İnsanın ağlını alma əlindən.
Qoy onlar qocalsın ağılla, başla,
Heç zaman gəzməsin gözündə yaşla.

İdarə eyləsin hər an özünü,
Alma əllərindən əl- ayağını.
Çox dürüst söyləsin ürək sözünü,
Açma üzlərindən nur duvağını.

Onların dilləri qoy olsun şirin,
Kimsəyə eyləmə qocanı möhtac.
Yediyi olmasın heç vaxt qan-irin,
Tox olsun, bir an da qalmasınlar ac.

Allahım, onlarn tökmə dişini,
Qocanın əlindən alma gözünü.
Həmişə özləri görsün işini,
Nə olar əsməyə qoyma dizini.

Allahım, heç kəsin qəddini əymə,
Heç kimi atmayın huzur evinə.
Pozub sağlığını canına dəymə.
Qoyun öz evində onlar sevinə.

## Boğaraq öldürdün

*(Cəbrayıl Dövlətzadə)*

Yaradan qəhrəman yaradıb səni,
Yaraşıq səndədir, boy-buxun səndə.
Qanınla qorudun doğma vətəni,
İgid tək tanındın ana vətəndə.

Sən bir şir ürəkli, igid pəhləvan,
Bizim generalın öcünü aldın.
Düşməni boğaraq oldürdün o an,
Bununla adını tarixə saldın.

On doqquz yaşında canından oldun.
Heyranam o polad biləklərinə.
Qonçə bir gül kimi açmamış soldun,
Qurbanam yarımçıq diləklərinə.

Təbrik eyləyirəm yeni yaşını,
Cənnətdə bu yaşın mübarək olsun.
Bağrıma basıram mərmər daşını,
Məzarın həmişə nur ilə dolsun.

## Dəyməyin xətrinə

Dəyməyin qızların heç vaxt xətrinə,
Ətirli bir güldür, mələkdir qızlar!
Qıymayın onların o gül ətrinə,
Hər zaman anaya gərəkdi qızlar!

Bacıya anadır, qardaşa bacı,
Atanın ürəyi, gözüdür qızlar!
Anaya olurlar onlar baş tacı,
Evlərin çırağı özüdür qızlar!

Köçəri bir quşdur gözəl mələklər,
Hər bir qız böyüyür, hər an nazlanır.
Onlarla birgədir arzu, diləklər,
Günlərin birində o pərvazlanır.

Quş kimi uçurlar yeni yuvaya,
Qızlara əzizdir ata ocağı.
Nümunə olurlar elə - obaya,
Ən rahat bir yerdir ana qucağı.

Bu günün sevimli sonasıdırlar,
Xətrinə dəyməyin küsəndir, qızlar.
Sabahın ən gözəl anasıdırlar,
Ətirli bir güldür, süsəndir qızlar!

# Payız

Duyulur payızın soyuq nəfəsi,
Getdikcə küləyin artır sürəti.
Üşüdür bu hava indi hər kəsi,
Yaşıllıqdan əsər qalmayır qəti.

Artıq libasını dəyişir hər yan,
Yarpaqlar başlayır saralıb, solur.
Al-əlvan geyinir bu Azərbaycan,
Tökülür torpağa lap xəzəl olur.

Gözəldir payızın bu mənzərəsi,
Meyvələr yetişir, əyir budağı.
O valeh eyləyir görən hər kəsi,
Aramla isladır yağış torpağı.

Göydən damla-damla sular ələnir,
Gözəldir, elimin payız ayları.
Hər tərəf yağışa, nura bələnir,
Suyun bolluğundan coşur çayları.

Ayrıdır payızın ləzzəti, dadı,
Qızılı payızdır, bu fəslin adı.
Bütün fəsillərin gözüdür payız.
Hamının sevimli sözüdür payız.

## Ən gözəl yerdir vətən

Bu dünyanın düzündə,
Axtarsan yer üzündə.
Görmüşəm, deyirəm mən.
Ən gözəl yerdir vətən!

Doğmadır künc - bucağı,
Əzizdir hər ocağı,
Cənnətdir həqiqətən,
Ən gözəl yerdir vətən!

Var səfalı dağları,
Bol meyvəli bağları.
İnsanı mehriban, şən,
Ən gözəl yerdir vətən!

İgiddir hər övladı,
Qalib ölkədir adı.
Həsəd aparır görən.
Ən gözəl yerdir vətən!

Dolan bütün cahanı,
Vətənə tay bax hanı?
Cənnəti gəzsən də sən,
Ən gözəl yerdir vətən!

## Yaxşı ki, varımsan

Ətirli baharımsan,
Sevgi dolu yarımsan,
Nə yaxşı ki, varımsan,
Mənim həyat yoldaşım.

Yanında var adaşın,
Ağarıb saçın, basin,
Xoş gəlib yeni yaşın,
Mənim həyat yoldaşım.

Gün dolanır, gəlir ay,
İlləri saydıqca say,
Dünyada ən gözəl pay,
Sənsən həyat yoldaşım.

Zirvəyə ucalırsan,
Demə ki, qocalırsan,
Dünyadan həzz alırsan,
Mənim həyat yoldaşım.

İlləri verək yola,
Yenə gəzək qol-qola,
Hər an yanımda ola,
Mənim həyat yoldaşım.

# Ömür gedir

Kaş quş olub lap uçaydım.
Mən qayıdam cavanlığa.
İstəyirəm bir anlığa,
O illərə tez qaçaydım.

Mən deyirəm, elə -belə,
Cavanlığın yoxdu tayı.
Heç nə çatmaz həmin ilə,
Calasan da ilə ayı.

Quş tək uçur ömür özü,
Sürət alır irəliyə.
Hara gedir bilmir düzü,
Ömür dönməz heç geriyə.

Son mənzilə bir gün çatır,
Məzarlığa bizi atır.
Görürsən ki, addım başı.
İnsan olub məzar daşı.
Məzarlıqda elə o an,
Xatirəyə dönüb insan.

# Ölməmişəm mənə inan

*(şəhid Hüseyin)*

Mən Hüseyin, sən də Atlas,
Sil gözünün sən yaşını.
İndi mənə bir qulaq as,
Qucaqlama baş daşını.

Bilsin dünya, duysun cahan,
Mən şəhidəm, uca dağam.
Ölməmişəm mənə inan!
Sənin üçün hər an sağam.

Cənnət mənim məkanımdı,
Ağlama sən, sil gözünü.
Tarix yazan al qanımdı,
Qürurlu tut sən özünü.

Varlığımla sevdim səni,
Fəxr elə sən mənlə hər an.
Öz qəlbində yaşat məni,
Qoy sevinsin Azərbaycan!

## Biləmmədi

Vaxtsız açan gül olmuşam,
Oxuyan bülbül olmuşam.
İndi niyə lal olmuşam?
Heç özüm də biləmmədim.

Hey alışdım, həm də yandım,
Bu dünyanı asan sandım,
Lap yoruldumçox usandım,
Ürəkdən mən güləmmədim.

Zaman necə gəldi keçdi?
Müşgül işlər məni seçdi,
Libasımı qəmdən biçdi,
Göz yaşımı siləmmədim.

Dəniz kimi çağlamışam,
Sözdən kitab bağlamışam,
Axı niyə ağlamışam?
Heç özüm də biləmmədim.

Rənanın var söz dünyası,
Hər sətirin öz mənası,
Şeirlədir hər röyası,
Mən coşanda dinəmmədim.

# Qızım

Sən mənim başımın tacısan, qızim!
Yaradan bəxş edib səni özümə.
Həm ana, həm mənə bacısan, qızım!
Sanki nur edibdı qara gözümə.

Sən mənə arxasan, dayaqsan qızım!
Ətirli çiçəksən ömür yolumda.
Həmişə parlayan mayaqsan, qızım!
Sanki yuxudasan hələ qolumda.

Qollarım olubdu sənin yatağın.
Gecələr sevərək layla calmışam.
Qucağım olubdu rahat otağın,
Sənin varlığından mən həzz almışam.

Qızlardır ananın ən ləziz payı,
Sən mənim ömrümə bəzəksən, qızım!
Onlardır bizlərin günəşi, ayı,
Mənimçün gözəl bir mələksən, qızım!

## Axı hardan biləsən ki

Həzin əsən bir mehəm mən,
İnciyənəm, tez küsənəm.
Gül üstündə tər şehəm mən,
İncə qəlbli bir süsənəm.

Gündüz günəş, gecə ayam,
Ulduzlara özüm tayam.
Axı hardan biləsən ki,
Sənə əziz mən bir payam.

Gözləyirəm mən yolunu,
Addımlayaq birgə qoşa.
Gəl qoluma tax qolunu,
Qoy ürəklər gəlsin cuşa.

Sən cavab ver sevgimizə,
Əhsən desin ellər bizə.
Axı hardan biləsən ki,
Xəyal qurdum özümüzə.

## Qəfil gələn qonaq

Yad elləri gəzdim, aşdım,
Əcəlimlə qarşılaşdım.
Əjdaha tək oyanmışdı,
Düz qarşımda dayanmışdı.

Göy titrədi sanki bir an,
Kinli-kinli öncə baxdı.
Heç vermədi mənə aman,
Birdən məni yerə caxdı.

Eşitmədi fəryadımı,
Alovlandı, yandı canım.
Unutdurdu öz adımı,
Su tək yerə axdı qanım.

Düz deyirlər ölüm haqdır,
Eyləyibdi bu vərdişi.
Qəfil gələn bir qonaqdır,
Məlum deyil heç gəlişi.

## Ürəyim bağlıdır sənə

Xəyala dalmışam yenə bu gecə,
Başımda fırlanır yenə duman, çən.
Ürəyim titrəyir görəsən necə?
Fikirlər içində qovruluram mən.

Üzümü tuturam bu qaranlığa,
İstədim quş olam, uçam yanına.
Sanki gördüm səni bircə anlığa,
Qurbanam ananı sevən canına.

Ananın ürəyi bağlıdır sənə,
Biləsən, məskənin bu ürəyimdir
Darıxdım söylədin, ay oğlum mənə,
Həmişə öz balam öz gərəyimdir!

Eşitdim könlünün mən harayını,
Mən özüm darıxdım, səninçün yaman.
Titrətdin qurduğun qəlb sarayını,
Sənə qurban olsun hər zaman anan.

## Darıxdım, ana

Deyərdin gözlərin axtarır məni,
Sənsiz darıxmışam görəydin necə?
Görmək istəyirəm, ay ana səni,
Yadımdan çıxmırsan sən gündüz - gecə.

Gələrdim yanına sənin hər səhər,
Bu gün uça-uça dəldim evinə.
İndi boğub məni açı bir qəhər,
Deyirdim görüşək anam sevinə.

Qapının önünə çatdığım zaman
Yadıma düşdü ki, evdə yoxsan sən.
Bu dünya başıma fırlandı inan,
Kədərlə qapıdan geri döndüm mən.



## Qəlbimə yazdım

Bilmirəm günəşsən, yoxsa ki, aysan?
Səninlə həyatım güldü üzümə.
Bəxtimə yazılan ən gözəl paysan!
Dünyanı bəxş etdin sanki özümə.

Gözümdə bu aləm nura bələndi.
Qaranlıq gecədə sanki doğdu ay.
Elə bil ulduzlar yerə ələndi,
Yaradan vermişdi səni mənə pay.

Yaxşı ki, həyatda rast gəldim sənə,
Birlikdə biz daddıq sevgi dadını.
O zaman pay etdin qəlbini mənə,
Ömürlük qəlbimə yazdım adını.

## Sevən ürəklər

Mən səni yadıma saldığım anda,
Gəzirəm yenə də çölü, çəməni.
Səndən bircə damla sevgi umanda,
Bilmirəm heç harda axtarım səni?

Ürəyim çırpınır, sanki dardadır,
Sevgimə verməsən bil ki, sən dəyər.
Bu dünyam bilmirəm onda hardadır,
Bu qədər yük mənim qəddimi əyər.

Belə yük ağırdır, olduqca ağır,
Bax, buna heç nəyin yoxdur əlacı.
İstər göz yaşı tök, istərsə bağır,
Sevənin sevgiyə var ehtiyacı.

Kaş sevən ürəklər vuraydı qoşa,
Dünyanın xoşbəxti olur həmin an.
Sevgidən ürəklər gələydi cuşa,
Sevərkən qarşılıq görəndə insan.

## Kişi nə edəcək

Bir gün ev-eşiyi tərk edəcəyəm.
Təsəvvür eyləmək çətindir aman.
Bu isti evimdən mən gedəcəyəm,
Kişi nə edəcək görən o zaman?

İşdən gələcəkdir hər yer qaranlıq,
Görəcək yanmayır evin çırağı.
Onda xatırlayar məni bir anlıq,
Sükuta bələnib küncü-bucağı.

Baxacaq qaynamır evində qazan,
Görəcək kəsilib çaydanın səsi.
Gözünə inanmaz yəqin ki, o an,
İsitmir evini qadın nəfəsi.

Onda dar olacaq dünya başına,
Mən xəyal edirəm bunları boş-boş.
Ehtiyac duyacaq öz yoldaşına,
Bəlkə də kişiyə bu olacaq xoş.

## Kimə inanım

Gör necə küsdürdün həyatdan məni,
Bürüdün başıma dumanı, çəni,
Kaş görməz olaydı gözlərim səni.
Bilmirəm heç kimə inanım ki, mən?

Qalmayıb heç nəyin nə duzu, dadı,
Sevginin yalandan çıxıbdı adı,
Tanıya bilmirəm doğmanı, yadı,
Bilmirəm heç kimə inanım ki, mən?

Baş alıb sürətlə yeriyir yalan,
Qalmayıb doğruya daha inanan,
Əzrayıl səninlə dolanır hər an,
Bilmirəm heç kimə inanım ki, mən?

Bahalıq gör necə baş alıb gedir,
Qiymətlər insanı çox məyus edir,
Haqsızlar haqlının ətini didir,
Bilmirəm heç kimə inanım ki, mən?

## Axı mən kiməm

Libasım biçilib qəmdən, kədərdən.
Ey yeri yaradan, göyü yaradan.
Artıq mən bezmişəm belə qədərdən?
Nə olar kədəri qaldır aradan.

Problem üstümə qoşunla gəlir,
İmkan ver, arada mən nəfəs alım.
Atdığı nizələr canımı dəlir,
Bir azca kədərdən aralı qalım.

Sevinci verirsən lap damcı- damcı,
Gördüyüm günləri burnumdan tökdün.
Bilmirəm fələyin nədir amacı?
Tez-tez əzrayıl tək sinəmə çökdün.

İstərəm çıxaram kədər donunu,
Axı mən kiməm ki, görəm bu işi?
Kədərin gətirəm indi sonunu,
Belə yaradıbdı görünməz kişi.

## Sirli ölüm

*Poema*

Soyuq külək əsir lap aram-aram,
Sanki söyləyir ki, burda mən varam.
Ətrafa çökübdü qatı qaranlıq,
İnsanı vahimə basır bir anlıq.
Göz- gözü görməyir elə bil bu an,
Vahimə içində gəzişir Rizvan.
Təlaşla boylanır o, telefona,
Xoş xəbər verəcək telefon ona.
Övlad gözləyirdi Rizvanın özü,
Ekranda ilişib qalmışdı gözü.
Rizvan boylanırdı o yan, bu yana,
Ağrılar çəkirdi həkimdə ana.
Aradan keçmişdi bir xeyli zaman,
Soyuq üşüdürdü Rizvanı bu an.
Həyətdə bir qədər o, var-gəl etdi,
Xəyalən əvvəlki illərə getdi.
Həmin xəstəxana, həmin bu həyət,
Dünyaya gəlmişdi onda Hidayət.
İlk övlad dadını onda dadmışdı,
Sevincdən yerində donub qalmışdı.
Aradan keçmişdi, artıq düz üç il…
Həmin günlər idi sanki elə bil.
Gözləyirdi indi qız övladını,
Natəvan qoymuşdu hətta adını.
Öncədən bilirdi qızı olacaq,
Səs-küyü, sevinci evə dolacaq.
Su kimi axaraq gedirdi zaman,
Bir xəbər yoxuydu hələ də bu an.

Saat bir-birini əvəz edirdi,
Yarpaq tək ömürdən bir gün gedirdi.
Gəzirdi həyətdə bütün hər yeri,
Nəhayət həkimdən aldı xəbəri.
Təbrik eylədilər həmən Rizvanı,
Dedilər qurtardı Sevincin canı.
Dünyaya gətirdi qız övladını,
Gəl təbrik eylə sən indi qadını.
Gəlirdi uşağın ağlamaq səsi,
Sevincək görürdü Rizvan hər kəsi.
Uçmağa yoxuydu onun qanadı,
Sevincdən yadına gəlmirdi adı.
Tələsik cibinə atdı əlini,
Tez işə saldı o, sirin dilini.
Hər kəsə payladı öz nəmərini,
Çox xoşbəxt görürdü o, qədərini.
Hamıya nə qədər dil-ağız etdi,
Sevincək dostların yanına getdi.
Üz tutdu dostların yanına Rizvan,
Uçmağa qanadı yoxuydu bu an.
Rizvanı dostları təbrik edirdi,
Burda çox gözəl bir məclis gedirdi.

***

Getdikcə özünə gəlirdi Sevinc,
Artıq yorulmuşdu, dayanmışdı dinc.
Nə qədər çəkmişdi ağrı, əziyyət,
Ancaq yaxşı idi sonda vəziyyət.
Sevgiylə baxırdı uşağa özü,
Uşağa dikilib qalmışdı gözu.
Çox razı qalmışdı o, yaradandan,
Qızına baxırdı doğulan andan.

Əsirdi ananın hələ vücudu,
Yoxuydu sevincin həddi-hüdudu.
Körpənin nəbizi tez-tez atırdı,
Səsiylə aləmi sanki qatırdı.
Dünyaya gələndə əvvəl ağladı,
Gözündən sel kimi yaşlar çağladı.
Sonunda kiriyib sakit dayandı,
Sanki o, özünü bir mələk sandı.
Boylandı o yana, gah da bu yana,
Fəxirlə qızına baxırdı ana.
Ananın ürəyi sevinclə doldu,
Elə bil dünyanın xoşbəxti oldu.
Sevinirdi qızı gəlib dünyaya,
Bənzədirdi onu günəşə, aya.
Sevincin canından ayrılmışdı can,
Gözləri qızında qalmışdı bu an.
Uşağı bələyib aldılar ordan,
Üstünə saldılar isti bir yorğan.
Sonra da ananı rahatladılar,
Bir həftə birlikdə orda qaldılar...

***

Günlər bir-birini əvəz edirdi,
Vaxt-vədə su kimi axıb gedirdi.
Rizvanın yoxuydu gecə- gündüzü,
Çox çətin gülürdü həmişə üzü.
Pul üçün aləmi sanki qatırdı,
Hər işə əlini hər an atırdı.
O, alın təriylə pul qazanırdı,
Olduqca özünü xoşbəxt sanırdı.
Oxuyub mühəndis olmuşdu Rizvan,

İşində bir gəlir yoxuydu bu an.
Həmişə vaxtında işə gedirdi,
Aldığı məvacib azlıq edirdi.
Özünü vururdu o, oda, közə,
Heç bir şey dəymirdi yenə də gözə.
Maşın növbəsinə durmuşdu Rizvan,
Narahat olurdu həmuşə, hər an.
Çox azlıq edirdi yığdığı pulu,
Bilmiir neyləsin allahın qulu.
Dişini sıxdı o, bir gün canına,
Böyük qardaşının getdi yanına.
Fikirli gedirdi, o, addım-addım,
Məqsədi varıydı istəsin yardım.
Qardaşı evinə artıq çatmışdı,
Həyəcan içində tərə batmışdı.
Əvvəlcə ətrafa bir qulaq asdı,
Aramla bu evin zəngini basdı.
Aradan keçmişdi azacıq zaman,
Qapıda göründü qardaşı Ruslan.
Sevindi Rizvanı gördüyü anda,
Bir kədər varıydı özündə onda.
Rizvanı bağrına basdı o dəmdə.
Səni istəyirdim, söylədi mən də.
Sevincək Rizvanın girdi qoluna,
Onlar üz tutdular evin yoluna...

***

Ruslanın otuz beş olardı yaşı,
Onu çox sevirdi bacı, qardaşı.
Evin ilk övladı olmuşdu Ruslan,
İşgüzar olmuşdu həmişə, hər an.

Evliydi, varıydı onun arvadı,
Gülcahan deyərək çağrıldı adı.
Ev-eşik, hər şeyi verdi yaradan,
Bir qızı doğuldu onun anadan.
Uşağın yoxuydu hələ heç adı,
Nədənsə bu uşaq çox yaşamadı.
İlk və son uşağı bu qız olmuşdu,
Artıq ümüdləri gül tək solmuşdu.
İllərdir həkimə yol salmışdılar,
Yenə də yanları boş qalmışdılar.
Ruslanın varıydı gözəl imkanı,
İşinə, evinə bağlıydı  canı.
Ticarət işində o, çalışırdı,
Başı iş-güc ilə hey qarışırdı.
Həmişə Rizvana kömək edirdi,
Arada onlara qonaq gedirdi.

***

Bir qədər fikirə getmişdi Rizvan,
Nəsə xatırladı elə bil bu an.
Əlini  atdı o, tez telefona,
Gördü heç məsaj da çatmayır ona.
Özünü itirdi, elə bu zaman,
Gözünün önündə canlandı Ruslan.
Hardadır görəsən onun qardaşı?
Əvvəllər yığardı hər addım başı.
Qardaşım hardadır, bu sözü demir?
Gəlməyir heç ondan nə səs, nə səmir.
Dalbadal zəng etdi o, telefona,
Heç cavab vermədi yenə də ona.
Kədərlə bir qədər fikirə daldı,
Bu işə özü də onun mat qaldı.

Görəsən nə olub bəs qardaşıma?
Nə işlər gəlibdi onun başına?
Hamı bir yanaydı Ruslan bir yana,
Sonra zəng eylədi tez Gülcahana.
Hal -əhval eylədi, sordu Ruslanı,
Söylədi: nigaran qalıbdı canı.
Gülcahan onunçün verdi izahat,
Ruslancün olma sən dedi narahat.
Bilirsən, iş üçün xaricə gedir,
Tələsik olanda o, belə edir.
Hələ ki, mənə də zəng etməyibdi,
Bəlkə də məsajın heç getməyibdi.
Yaxud da tutmayır heç telefonu,
Günahkar bilmə sən, ay qardaş onu.
Doğrusu budur ki, deyirəm düzü,
Bir gün zəng edəcək yəqin ki, özü....

***

Varıydı onların böyük bacısı,
Çoxuydu bu qızın dərdi, acısı.
O, ərə getmişdi erkən yaşında,
Problemi çoxuydu onun başında.
Yoxuydu Çiçəyin heç güzaranı,
Evində qalırdı həmişə canı.
Müəllim olsa da məktəbdə Çiçək,
Evdə də hər işə o, baş çəkəcək.
Bu Çiçək iş-gücə çox alışmışdı,
Zəhmətkeş həyatla o, barışmışdı.
Qarabağ qazisi olmuşdu əri,
Çox zəif görürdü onun gözləri.
Döyüşdə almışdı qəlpə yarası,
Elə bil yoxuydu başın parası.

Həkimlər Rövşənə etdilər yardım,
Əmələ gəlirdi o, addım-addım.
Gözətçi işlədi Rövşən dükanda,
İşində olurdu istənən anda.
Onların bir qızı, bir oğlu vardı,
Uşaqsız bu dünya onlara dardı.
Uşaqlar böyüyüb çatdılar başa,
Artıq gəlmişdilər bəlli bir yaşa.
İllər bir- birini tez- tez qovurdu,
Ömürdən günləri sanki ovurdu.
Qızlar bulağından Günel su içdi,
Özünə ömür-gün yoldaşı seçdi.
Eyni fakultədə təhsil aldılar,
Birlikdə hər yana səs-küy saldılar.
Bu sevgi dillərdə olmusdu dastan,
Ayrı durmayırdı onlar bircə an.
Nəhayət Vüqargil elçi getdilər,
Günellə çox gözəl nişan etdilər.

***

Rizvan bürünmüşdü qəmə, kədərə,
Fikiri gedirdi onun yüz yerə.
Bankdan pul götürüb aldı maşını,
Hər yanda gəzirdi o, qardaşını.
Ruslandan yoxuydu heç xəbər-ətər,
Gün elə gəlirdi dünəndən betər.
İşində olurdu hər gün mühəndis,
Əhvalı olurdu günü-gündən pis.
Günlərin birində verdi bir qərar,
Deyirdi bu işdə nəsə bir iş var.
Fikirli-fikirli polisə getdi,
Bu haqda polisi xəbərdar etdi.

Sürətlə yayıldı xəbər hər yana,
Artıq od düşmüşdü bu şirin cana.
Yoxuydu Rizvanın gecə-gündüzü,
Bilmirdi neyləsin, nə etsin düzü.
Axtarış hər yerdə davam edirdi,
Söz-söhbət baş alıb yaman gedirdi.
Gülcahan özünə bir əl qatmışdı,
İşini-gücünü artıq atmışdı.
Xəbərçün hər gündə polisə gedir,
Bezdirib, onları tamam dəng edir.
Hamıdan polislər izzahat aldı,
Bu xəbər aləmə səs-səda saldı.
Ev-eşik tutmurdu gələn qonağı,
Adamla dolurdu gündə otağı.
Bir gün də polislər evə gəlmişdi,
Demişdi, bu işlər mürəkkəb işdi.
Tamamən gəzdilər evi-eşiyi,
Suala tutdular hər bir kişiyi.
Bütün bu işləri gördüyü zaman,
Gülcahan söylənib-deyindi o an.
Sizləri anlaya bilməyirəm mən,
Nə üçün evləri gəzirsiz görən?
Sizlərə heç yoxdu mənim də sözüm,
Bilin ki, görürəm, kor deyil gözüm.
Olsaydı bu evdə əgər o, kişi,
Burda bəs nə idi polisin işi?
O, boyda kişidən yox xəbər- ətər.
Mənim öz dərdlərim özümə yetər.
Müstəntiq duruxub dedi: - Ay bacı,
Bilirəm, ağırdır çəkdiyin acı.
Bizlərdə belədir işin qaydası,

Yoxsa heç olarmı onun faydası?
Hər şeyi dərindən öyrənək gərək,
Sonra da bu işin xeyrini görək.
Darıxma düzələr sənin də işin,
Günlərin birində tapılar kişin...
***
Bu işin üstündən keçdi nə qədər,
Yoxuydu bu işdən ancaq bir xəbər.
Günlər bir-birini qovub gedirdi,
Hər  kəs öz yoluna davam edirdi.
Dunyaya gəlməyib sanki bu insan,
Nə izi, nə tozu yoxuydu bu an.
Onların lap yaxın qonşusu vardı,
Çox zaman qonşular birgə olardı.
Qonşunun varıydı bircə övladı,
Mehman qoyulmuşdu onun da adı.
Oğlana gözəl bir qız almışdılar,
Nişanla dünyaya səs salmışdılar.
Qonşunun dövləti aşıb-daşırdı,
Qız isə oğlana çox yaraşırdı.
Toy etmək zamanı gəlib çatmışdı,
Hamının başını bu toy qatmışdı.
Böyükdən kiçiyə hazırlaşırdı,
Onların sevinci aşıb-daşırdı.
Gözəldir hər yerdə yazın axşamı,
Belə bir axşamda yığışdı hamı.
Həyətdə çox gözəl çadır qurdular,
İçinə bər-bəzək, xalça vurdular.
Həyətdə caldılar, həm oynadılar,
Sanki oynamaqdan heç doymadılar.
Qonaqlar çadırda bax ola-ola,

Bir qismi üz tutdu gəlinçün yola.
Aradan keçmişdi azca bir zaman,
Gəlinlə döndülər hamısı o an.
Getdikçə artırdi gələn qonaqlar,
Ortadan çıxmırdı cavan uşaqlar.

***

Hər yana yayıldı bu toyun səsi,
Dəvət etmişdilər ora hər kəsi.
Gülcahan bu toya dəvət almışdı,
Fikirlər içində dərdə qalmışdı.
Bilmirdi o, toya getsin, getməsin?
Günahı yoxuydu orda heç kəsin,
Çəkmədi üzünə bir damcı boya,
Sadəcə geyinib üz tutdu toya.
Olduqca maraqlı bir toy gedirdi,
Qonşular ürəklə çıxış edirdi.
Ətrafa yayıldı musiqi səsi,
Ürəklə oynatdı orda hər kəsi.
Nərminin varıydı düz on bir yaşı,
Toya qarışmışdı hamının başı.
Ortada oynayıb gəzirdi bu qız,
Sanki parlayırdı orda bir ulduz.
Mələk tək mağara işıq saçırdı,
Güləndə üzündə güllər açırdı.
Başına çiçəkdən qoymuşdu bir tac,
Gözəllik verirdi ona qıvrım saç.
Əynində varıydı qırmızı donu,
Atası kənardan çağırdı onu.
Mənim gözəl qızım, sən gəl belə et,
Bu saat buradan əmingilə get.
Gödəkcəm onlarda qalıb dünəndən,

Onu gətirməni istərəm səndən.
Mağardan çıxaraq qız gülə-gülə,
Üz tutdu tələsik əmisigilə.
Aradan keçmişdi bir xeyli zaman,
Yoxuydu bu toyda içkisiz adam.
Hər şey öz yoluyla davam edirdi,
Olduqca maraqlı bir toy gedirdi.
Nərmindən yoxuydu hələ bir xəbər,
Atası düşündü, bu qədər yetər.
Bu kişi hər yerə səs-səda saldı,
Axı qız hardadı, bəs harda qaldı?
Ana bir tərəfdən, ata bir yandan,
Kənddə xəbər aldı bütün insandan.
Dəhşətə gəlmişdi kəndin adamı,
Nərmini gəzirdi evbəev hamı.
Axtarış hər gündə davam edirdi,
Evlərdə söz-söhbət qızdan gedirdi.
Yağlı bir tikə tək yoxa çıxmışdı,
Atanın, ananın evin yıxmışdı.
Ananın yollarda qalmışdı gözü,
Dilində bitmişdi bir Nərmin sözü.
Olmadı onların gecə-gündüzü,
O kənddə gülmürdü heç kimin üzü.
Nənə üz-gözünə şıram çəkmişdi,
Sanki o, üzündə bir şum əkmişdi.
Günlər bir-birini qovub gedirdi,
Polislər hamını sorğu edirdı.

***

Rizvan hey batırdı kədərə, qəmə,
Polislər ip ucu tapıblar demə.
Ancaq heç yoxuydu onun xəbəri,

Dolaşıq gedirdi bütün işləri.
Onlara gələrdi tez-tez bacısı,
Çoxuydu onun da dərdi, acısı.
Gözləri gəzirdi hər an Ruslanı,
Dərddən üzülürdü getdikcə canı.
Allahdan ümüdü kəsmirdi bir an,
Bir dəri, bir sümük qalmışdı inan.
Rizvana verirdi o, ürək-dirək,
Dözümlü olasan deyirdi gərək.
Ruslanın bir iş var yəqin başında,
Çöllərdə gəzməz ki, o, bu yaşında.
Mən elə bilirəm gələcək özü,
Bizlərə baxacaq qapqara gözü.
Ancaq o, qorxurdu, fikir edirdi,
Günlərin birində toya gedirdi.
Heç toyluq deyildi Çiçəyin halı,
Olduqca pisiydi onun əhvalı.
Könülsüz geyindi əyin-başını,
Sildi üz-gözündən axan yaşını.
Ətir də tökdü o, tez üst- başına,
Tələsik oturdu Çiçək maşına.
Onlar restorana gəlib çatdılar,
Kədəri, həm qəmi bir az atdılar.
Maşından düşürdü bir-bir adamlar,
Təbrikə gəlmişdi birlikdə onlar.
Salona girmişdi bəy ilə gəlin,
Çox gözəl günüydü bu gün bu elin.
Hər yana yayıldı musiqi səsi,
Toyda salamladı hər kəs hər kəsi.
Cavanlar oynayıb yallı gedirdi,
Hamı bəy-gəlini təbrik edirdi.

Masanın üstündə nə desən vardı,
Nəhayət bu məclis artıq qurtardı.
Ayrıldı məclisdən Rövşənlə Çiçək,
Mat qaldı aynada özünü görcək.
Dayanıb ordaca yumdu gözünü,
Yuxuda hiss etdi Çiçək özünü.
İnana bilmədi sanki gözünə,
Diqqətlə baxdı o, yenə özünə.
Bir qadın baxırdı kənardan bu an,
O, da mat qalmışdı Çiçəyə inan.
Çiçəyə səsləndi: sən mənim canım,
İndi dəb budurmu, ay gözəl xanım?
Fikirli-fikirli Çiçək dayandı,
Yatmışdı elə bil indi oyandı.
Diqqətlə baxdı o, tez ayağına,
Qızartı çökmüşdü al yanağına.
İndi anlamışdı olub- keçəni,
Heç görən oldumu, ay Allah məni?
Ayağın birində qaşlı dik daban,
Alov tək parlayır elə bil bu an.
İkinci ayaqda başqadır görkəm,
Gülməli görünür olduqca bu dəm.
Dik daban deyil bu, yoxdu daş- qaşı,
Ayaqdan tez cıxır hər addımbaşı.
Yerində donmuşdu elə bil Çiçək,
Gülməyə başladı yenidən görcək.
Çiçək gülməyirdi xeyli zamandı,
Rövşən ona baxıb pörtüb, utandı.
Qorxuya düşmüşdü baxdı hər yana,
Vahimə gəlmişdi sanki bu cana.
O, elə bildi ki, qız olub dəli,

Buz kimi olmuşdu ayağı, əli.
Düşündü, itibdi bunun qardaşı,
Yəqin ki, onunçün pozuldu başı.
Söylədi: nə oldu, ay Çiçək sənə?
Bir dayan, düzünü söylə gəl mənə.
Arvadı söylədi, bax ayağıma,
Gəl ona görə də düş qabağıma.
Qoy görən olmasın arxada məni,
Tutalğac eyləyim özümə səni.
Fikirli olmuşam, heç görməmişəm,
Yaxşı ki, fikirdən mən ölməmişəm.
Qorxutdun, ay Çiçək, qorxutdun məni,
Yəqin ki, mat qoydun səni görəni.
Diqqətlə qulaq as indi sözümə,
Sən nədən gülürsən axı özünə?
İşlərin axırı nə olur görək?
Gülmək yox, bu işə ağlamaq gərək...

***

Aradan keçmişdi bir xeyli zaman,
Yatmışdı evində həmin Gülcahan.
O, zəngin səsinə birdən oyandı,
Qapının önündə gəlib dayandı.
Həyətdə polislər gəlib dururdu,
Qapının zəngini tez-tez vururdu.
Gülcahan itirdi bu dəm özünü,
Heç deyə bilmədi kimsən sözünü.
Nəhayət qapını ehmalca açdı,
Qorxudan üzündə rəngi də qaçdı.
Bir polis tələsik önündə durdu,
Gəlinin qoluna qandalı vurdu.
Bizimlə getməli olacaqsan sən,

Buraya onunçün göndərildim mən.
Gülcahan  hər yerə səs-səda saldı,
Polisdən eyni bir cavabı aldı.
Bölmədə hər şeyi bilərsən özün,
Bütün dəlilləri görəcək gözün.
Bəs nədir, de görüm mənim günahım?
Görərsən, tutacaq sizləri ahım.
Əri itən də mən, günahkar da mən,
Bunları Allahım görmürmü görən?
Onların səs- küyü hər yeri aşdı,
Qonşular yığışıb ora toplaşdı.
Polislər bu qızı evdən aldılar,
Ordakı adamlar lap mat qaldılar.
Elə bil Çiçəyi ildırım vurdu,
Qardaşı gözünün önündə durdu.
Nə idi, ay Allah gəldi başıma?
Nə edib görəsən bu qardaşıma?
İnana bilmirəm polis sözünə,
Sözümü deyəcəm qızın özünə.
Nə qədər düşünüb getsəm dərinə,
Nə edə bilər ki, gəlin ərinə?
Heç ağlım kəsməyir bu işdən mənim,
Eləsə əzrayıl qoy olsun qənim.
Hər yerə bu xəbər tezcə yayıldı,
Sonunda Gülcahan qatil sayıldı.
Boynuna almırdı əvvəl heç nəyi,
Yalanın olmadı ona köməyi.
Sonunda hər şeyin üstü açıldı,
Doğrular günəş tək düzə saçıldı.

***

Gecə də, gündüz də polis çalışdı,

Gecəsi gündüzə tamam qarışdı.
Rəhmanı tutmuşdu polis əvvəlcə,
İşləri görmüşdü onlar gizlicə.
Polislər qatili tutduğu zaman,
Hər şeyi boynuna almışdı Rəhman.
Hamını sorğuya tutanda demə,
Kişini qonşular veribmiş ələ.
Heç nəyi əvvəlcə yaxın qoymadı,
Yalan danışmaqdan bezib, doymadı.
Elə ki, yemişdi şillə, qapazı,
Polisə satmışdı birinci qızı.
Müstəntiq hər gündə ora gedirdi,
Rəhmanı bolluca sorğu edirdi.
Sonunda bülbül tək danışdı Rəhman,
Eşidən dəhşətə gəlmişdi inan.
Dil açıb polisə söylədi kişi,
Gülcahanla birgə görmüşük işi.
Nə olsun, bəlli bir yaşa dolmuşuq,
Biz biri-birmizə aşiq olmuşuq.
Bir gün mən kafedə rast gəldim ona,
Gözümə göründü sanki bir sona.
Ürəkdən vuruldum mən Gülcahana,
Fikrimi söylədim bir axşam ona.
Danışıb, sonunda biz verdik qərar,
Dedi ki, evində görüşmək olar.
Çox zaman evində olmurdu əri,
Başından aşırdı onun işləri.
Elə ki, çıxırdı evindən Ruslan,
Xəbəri verirdi mənə həmin an.
Aradan keçmişdi bir xeyli zaman,
Bir gün öz yanıma gəldi Gülcahan.

Gördüm ki, titrəyir dili, dodağı,
Qantərə  batıbdı lalə  yanağı.
Dedi ki, bir qorxu düşüb canıma,
Bir müddət gəlmə sən mənim yanıma.
Məndən şübhələnir deyəsən Ruslan,
İstərdim biz ona quraq bir plan.
Götürək aradan biz bu Ruslanı,
Həsrətlə gözlərəm mən həmən anı.
Düşündük, sonunda biz verdik qərar,
Bir gecə yatanda öldürmək olar.
Sonra mən bazara, dükana getdim,
Ordan da lazımı bazarlıq etdim.
Salafan torbalar, bir mişar aldım,
Günlərlə xəyala, fikirə daldım.
Gülcahan zəng etdi bir gecə mənə,
Söylədi: yatırtdım Ruslanı yenə.
Qatdım yeməyinə yatmaq dərmanı,
Daş kimi uyuyur yataqda canı.
Sən gecə buraya yetir özünü,
Bu işə son verək, qırpma gözünü.
Gecənin yarısı mən orda oldum,
Nə qədər xəyala, fikirə doldum.
Qapını açaraq girdim otağa,
Diqqətlə baxdım o, yatan yatağa.
Xəlvətcə başının üstündə durdum,
Əvvəlcə başına bir güllə vurdum.
Otaqdan mən çıxdım sonra dəhlizə,
Söylədim bu əngəl olammaz bizə.
Məni gözləyirdi arvad dəhlizdə,
Birlikdə otağa qayıtdıq biz də.
Gördüm ki, var hələ xırıltı səsi,

Vurdum bir güllə də durdu nəfəsi.
Gülcahan sonra da eylədi yardım,
Sürüdük hamama lap addım-addım.
Ət kimi doğrayıb torbaya yığdım,
Torbanın ağzını bağlayıb sıxdım.
Zirzibil hamamda çıxmışdı dizə,
Cülcahan hamsını yığdı dəhlizə.
Hamamı mən yuyub tər-təmiz etdim,
Əynimi dəyişib dəhlizə getdim.
Bir-bir torbaları yığdım maşına,
Diqqət eyləyirdim yerin daşına.
Mən əmin oldum ki, qalmadı bir iz,
Ayrıldım ordan da çox sürətlə tez.
Kəndin kənarına lap gəlib çatdım,
Bütün torbaları çalaya atdım.
Torpaqla doldurdum tez bu çalanı,
Üstünə topladım otu-alanı.
Sonra da ayrıldım həmin məkandan,
Ruslandan qurtardıq elə o andan...

***

Xəbər də yayıldı bütün hər yana,
Eşidən mat qaldı bu Gülcahana.
Gülcahan nə imiş? Deyilmiş insan,
Gör necə bir işlər görürmüş aman.
Rizvanın başında qarışdı ağıl,
Sanki dinləyirdi dəhşətli nağıl.
Nifrətlə baxırdı Rəhmana o an,
Bu qədər qəddar da olarmı insan?
Nifrətlə baxırdı qatil qadına,
O, ləkə gətirdi qadın adına.
Az qala əsəbdən o, partlayırdı,

Ağrıdan ürəyi lap çatlayırdı.
Düşündü getdikcə bir az dərinə,
Gülcahan xəyanət etmiş ərinə.
Əvvəlki Gülcahan deyil elə bil,
Ərini öldürüb olmuşdu qatil.
Bütün bu işləri onlar etmişlər,
Cəllad tək birləşib sona getmişlər.
Olduqca acıydı, bu xəbər acı,
Varıydı orada yaralı bacı.
Əlacsız-əlacsız Çiçək baxırdı,
Gözündən leysan tək yaşlar axırdı.
İnana bilmirdi ölüb qardaşı,
Ruslanı gəzirdi hər addım başı.
Heç nəyin yoxuydu daha əlacı,
Ağlaya-ağlaya qalmışdı bacı.

***

Çiçəyin qudası gəlib-gedirdi,
Çiçəyiə bacı tək yardım edirdi.
Təsəlli edirdi onu hər zaman,
Onlara gəlirdi istənilən an.
Günelə pal-paltar alırdı Saray,
Üstə də qoyurdu cürbəcürə pay.
Bilmirdi nə etsin, bəs necə etsin?
Fikrindən kecirdi toyunu etsin.
Çiçəyə söz aça bilmirdi düzü,
Toydan söz salmağa gəlmirdi üzü.
Bilmirdi haradır işin harası?
Bilirdi təzədir onun yarası.
Ancaq heç Vüqar da vermirdi aman,
Elə toy eyləyək deyirdi yaman.
Günlər bir-birini qovub gedirdi,

Hərə öz yoluna davam edirdi.
Hər yeri başına aldı karona,
Dərmanlar heç kömək etmirdi ona.
Hər gündə artırdı ölünün sayı,
İnsanlar oldular torpağın payı.
Bütün xəstəxana adamla doldu,
Həkimlər özləri karona oldu.
Çiçəyin də artdı bax hərarəti,
Ağlına gəlmirdi ömründə qəti.
İnana bilmədi olar karona,
Belə bir diaqnoz qoydular ona.
Getdikcə pisləşdi Çiçəyin halı,
Dəyişdi, pis oldu tamam əhvalı.
Sanki boğulurdu, çatmırdı nəfəs,
Qorxuya düşmüşdü evdəki hər kəs.
Sümüyün ağrısı artırdı yaman.
Heç dözə bilmirdi ağrıya bu an.
Gördü ki, Çiçəyin halı ağırdı,
Günel tez təcili yardım çağırdı.
Qanını götürüb təhlil etdilər,
Sonra da Çiçəyi alıb getdilər.
Təcili başlandı dava-dərmanı,
Ağrıdan yanırdı elə bil canı.
Artıq boğulmağa başladı Çiçək,
İndi anladı ki, olanlar gerçək.
Ağrıdan girirdi sanki min dona,
Oksigen balonu qoşdular ona.
Nə qədər alsa da o dava - dərman,
Qanın qatılığı artırdı hər an.
Baxdılar komaya düşübdü qadın,
Yazığı gəlirdi qohumun, yadın.

Heç nəyin yoxuydu ona köməyi,
Az qala dayansın hətta ürəyi.
İcazə yoxuydu görəsən onu,
Elə bil gəlmişdi dünyanın sonu.
Günelin yoxuydu gecə-gündüzü,
Gülmürdü bir anda bu qızın üzü.
Vüqarın qaraydı olduqca qanı,
Günelin yanında qalmışdı canı.
İşini , gücünü o, da atırdı,
Nə lazım olsaydı onu tapırdı.
Çiçəyin yanına yol salmışdılar,
Bu işə özləri mat qalmışdılar.
Artıq düz on günü olmuşdu tamam,
Hamı çox nigaran olmuşdu yaman.
Bu gün də təzə bir xəbər aldılar,
Sevinib hər yana tez səs saldılar.
Dedilər düzəlir Çiçəyin halı,
Yaxşı olacaqdır işlərin dalı.
Düzəlib bədəndə həm hərarəti,
Yaxşıya doğrudur həm vəziyyəti.
Yoxuydu sevincin həddi-hüdudu,
Tibbin qələbəsi görün ki, budu.
Sevincdən bilmirdi Günel nə etsin?
Çiçəyin yanına istədi getsin.
İcazə vermədi həkim görüşə,
Söylədi: düşməyin artıq təşvişə.
Duaçı olun siz yenə Allaha,
Çiçəyi sizlərə qaytardı daha.
Burdan çıxıb o, sevinə- sevinə,
Sabah da gedəcək vallah evinə.

***

Soyuq qış gecəsi, bir axşam çağı,
Görmək olmayırdı azca qabağı.
Getdikcə qaranlıq qatılaşırdı,
İtlərin səsləri həddin aşırdı.
Şərifin yoxuydu gecə-günduzü,
Fikirli olurdu, gülmürdü üzü.
Anası Aynurə sanki olmuş daş,
Su kimi axırdı gözlərindən yaş.
Nərminin yoxluğu öldürdü onu,
Ağlına gəlmirdi nə olar sonu?
Həmişə oturub fikir edirdi,
Xəyalən uzağa çıxıb gedirdi.
Mən günah eylədim, Allahım harda?
Nə üçün qoyursan sən məni darda?
Heç nə mən almadım, geydim bir donu,
Zülümlə böyütdüm, axı bax onu.
Adi bir fəhlədir mənim yoldaşım,
Kafedə qab yudum, qarışdı başım.
Evimə gətirdim bir parça çörək,
Burnumdan gələydi elə bil gərək.
Heç kimlə olmayıb dava-dalaşım,
Ancaq nə zülümdür gör çəkim başım.
Ətrafda yaşayan qohum, qardaşdır,
Hamı bir -birinə dostdur, sirdaşdır.
Evimdə böyüyür üç qız övladım,
Onlar olubdular ağzımda dadım.
Heç kimlə olmayıb bir düşmənliyim,
Hər zaman olubdu ancaq mənliyim.
Zəhmətlə dolandım, alın tərimlə,
Həmişə işlədim birgə ərimlə.
Heç bir vaxt olmadıq nəyəsə möhtac,

Tox olduq, heç zaman olmamışıq ac.
Bəs harda qalıbdı mənim Nərminim?
Yanıbdı, kül olub imanım, dinim.
Hər yeri gəzmişik, biz dolanmışıq,
Haqqa, ədalətə arxalanmışıq.
Kəndin hər yerində gedib axtarış,
Evləri gəzmişik biz qarış-qarış.
Bütün zibilliyi gəzib, qazmışıq,
Mehriban xanıma məktub yazmışıq.
Axtaran, arayan sağ olsun, çoxdur,
Ancaq heç Nərmindən bir xəbər yoxdur.
Qırx yeddi gün keçib artıq aradan,
Yardımçı olsun qoy bizə yaradan.

***

Şərif hər bir yeri gəzdi, dolandı,
Nərmini tapmağa hər an inandı.
Əlini hər yerdən bəzən üzürdü,
Sualın ardınca sual düzürdü.
İnana bilmirəm qohum, qardaşa,
Hər yerə getmişəm özüm bir başa.
Ancaq heç qızımdan yoxdu xəbərim,
Gor nələr görəcək mənim gözlərim?
Qırx yeddi gündür ki, öldüm-dirildim,
Mehriban xanımı dayağım bildim.
Dövlət başçısına vardır inamım,
İlham Əliyevə gəlir gümanım.
Bilirəm, nə etsə onlar edəcək,
Bu işdə sonuna qədər gedəcək.
Papiros çəkirdi elə dalbadal,
Onun ürəyinə düşmüşdü bir xal.
O, birdən qorxurdu özü-özünə,

Nələr görsənirdi sanki gözünə.
Xəyallar içində itib-batmışdı,
İşini-gücünü tamam atmışdı.
Ay Allah, hardadır Nərmin görəsən?
Bu qədər acizmi oldum indi mən?
Heç yerdən almıram bir xəbər-ətər,
Bu gün də dünəndən gəlibdi betər.
Ürəyi darıxdı, o, çıxdı yola,
Boylandı küçədə sağa, gah sola.
Hasarın dibində gördü ki,  birdən,
Göylərə bir tüstü ucalır yerdən.
Getdikcə küçədə səs-küy artırdı,
Şərifin qulağı sanki batırdı.
Vəl-vələ düşmüşdü sanki canına,
Üz tutdu ocağın bu an yanına.
Ocağın kənarı adamla doldu,
Gözünə ilk dəyən qonşusu oldu.
Ocağa çox yaxın yerdə durmuşdu,
Üstəlik polisə o, zəng vurmuşdu.
Hər şeyi çəkərək lentə alırdı,
Boylanıb,hər yerə haray salırdı.
On bir il Şəriflə bir oxumuşdu,
Məktəbə birlikdə yol toxumuşdu.
Eyni bir küçədə yaşıyırdılar,
Qonşu tək bir adı daşıyırdılar.
Beş- altı ev vardı aralarında,
İlkin yer almışdı sıralarında.
Evlərlə doluydu sağı, həm solu,
İlkinin yanından keçirdi yolu.
Hər gündə bu yoldan Şərif gedirdi,
İlkini görəndə söhbət edirdi.

Hörmətli kişinin oğluydu İlkin,
Qəlbində yoxuydu heç kimə bir kin.
Zəhmətkeş insandı İbrahim kişi,
illərdi dərs demək olmuşdu işi.
Hörmətli kişiydi el ağsaqqalı,
Bu günlər heç yaxşı deyildi halı.
Hamının dadına özü çatırdı,
Bir neçə vaxtdır ki, xəstə yatırdı.
Heç kimlə İlkinin olmurdi işi,
Savadlı etmişdi onu da kişi.
Şəriflə həmyaşıd olsa da İlkin,
Hec zaman olmurdu kefi kök, nikbin.
Heç kimə dəyməzdi, nə dolaşmazdı,
Boş yerə həddini o, heç aşmazdı.

***

Şərif tez özünü ora yetirdi,
Tonqala baxanda başın itirdi.
İnana bilmədi görəndə özü,
Sanki kəlləsinə çıxmışdı gözü.
Şərifin qızıydı bax burda yanan,
Ağlını itirdi bu kişi inan.
Qurşağa qədər bu cəsəd yanmışdı,
Kösövə dönərək o, uzanmışdı.
Nərmini öldürüb ora atmışlar,
Kösövə döndərib, külə qatmışlar.
Aləm yığılmışdı bu küyə, səsə,
İcazə vermədi polis heç kəsə.
Qoymadı cəsədə yaxınlaşsınlar,
Nə də ki,həddini kimsə aşsınlar.
Ekspert Nərmini götürüb getdi,
Aynurə elə bil lap tufan etdi.

Şərifin evində qopmuşdu tufan,
Yer də ağlayırdı, göy də bax bu an.
Nənəsi Minayə duydu xəbəri,
Bir anda görmədi sanki, yerləri.
Risk edib cəsədə baxa bilmədi,
Ürəyi tutmuşdu, ancaq ölmədi.
Ağlayıb tökürdü o, göz yaşını,
Döyürdü divara, daşa başını.
Ay Allah, kim tutdu belə bir işi?
Kim oldu bu qədər axı nakişi?
Nərmini zülümlə böyütdüm özüm,
Qalmadı heç mənim deyəcək sözüm.
Bir parça uşağın nədir günahı?
Bunu kim edibsə qoy tutsun ahı.
Sonunda Nərmini dəfin etdilər,
Uşaqdan böyüyə dəfnə getdilər.
Kəndin məzarlığı adamla doldu,
Atayla, anaya olanlar oldu.
Artıq ümüdləri puça çıxmışdı,
Onların evini yıxan yıxmışdı.
Dəhşətə gəlmişdi kəndin adamı,
Qatılı tanımaq istərdi hamı...

***

Polislər İlkini göz altda aldı,
Bütün kənd bu işə tamam mat qaldı.
Bəs nədən İlkindən şübhə etdilər?
Bir başa polislər üstə getdilər?
İlkinin əmisi oğluydu Murad,
Polisdə işləyib çıxartmışdı ad.
Polislər evləri yoxlayan zaman,
İlkinin evinə qoymadı o an.

Dəlillər İlkini göstərdi qatil,
Murad yoxa çıxdı sanki elə bil.
İşindən istefa verdi o gecə,
Bu nədən eylədi, bunları necə?
Durduğu yerdəcə oldu işindən,
Sanki qurtulmuşdu öz keçmişindən.
Cəsədə birlikdə od vurmuşdular,
Sonra da yanında bir durmuşdular.
İlkin hər bir şeyi aldı boynuna,
Gəlmişdi şeytanın sanki oynuna.
Eytiraf eylədi hər şeyi o an,
Bunların heç biri deyildi yalan.
O gün mən Nərmini axşam çağında,
Görmüşdüm evimin düz qabağında.
Söylədim Nərminə gəl gedək bizə,
Bir kitab verəcəm indi mən sizə.
Aparıb atana verərsən onu,
Çox yaxşı olacaq işlərin sonu.
Çıxmaram heç zaman onun sözündən,
Kitabı istəyib mənim özümdən.
Yəqin ki, eşidib bilirsən sən də,
Atanın ən yaxın dostuyam mən də.
Kitablar yerləşir ikinci qatda,
Heç bir şey yoxdur ki, bu evin altda.
Mənimlə gəl çıxaq ikinci qata,
Yəqin ki, gözləyir səni də ata.
İkinci qata o, qaldırır qızı,
Bir alma gətirir gəngi qırmızı.
Nərminə verir ki, ye almanı sən,
Bu saat kitabı gətirərəm mən.
Gəl otur stulda, sən gözlə məni,

Bir azdan mən yola salaram səni.
Nərminin heç nədən yoxdu xəbəri,
Maraqla seyr etdi bütün yerləri.
Birdən o,Nərminin önündə durdu,
Skoçu qəfildən ağzına vurdu.
Kəndirlə stula onu bağladı,
Artıq qız qorxaraq möhkəm ağladı.
Heç başa düşmürdü olub keçəni,
Deyə bilməyirdi bağlama məni.
Səsini çıxartma dedi Nərminə,
Qaranlıq olanda gələcəm yenə.
Qapı pəncərəni bərk - bərk bağladı,
Xəlvətcə Nərmini orda saxladı.
Qaranlıq bir gecə, soyuq bir otaq,
Varıydı orada buz kimi yataq.
Qorxudan uşağın dörd oldu gözü,
Heç yerə səs sala bilmədi özü...

***

İlkin evlənməyib, subay qalmışdı,
Tay-tuşu evliydi, arvad almışdı.
Anlaya bilmirdi eşidən, bilən,
İlkinə nə oldu indi görəsən?
Onunla qalırdı ata, anası,
Olmurdu deyirlər onun xatası.
Heç kim gözləməzdi ondan bu işi,
İnana bilmirdi buna çox kişi.
Heç zaman qalmazdı xeyirdən, şərdən,
Nə oldu görəsən bax buna birdən?
Hər gün məhkəmədə sorğu gedirdi,
Bütün kənd bu işə təccüb edirdi.
Sübut eyləsinlər qoy bir dəfəlik,

Kənddə yaranmışdı iki tirəlik.
Şayələr baş alıb çıxıb gedirdi,
Nə üçün bu İlkin belə edirdi?
Ağıla gəlməyən gəlmişdi başa,
Ürəklər dönmüşdü elə bil daşa.
Kimi deyirdi ki, İlkin etməyib,
Qatillər getdiyi yolu getməyib.
Yəqin ki, veriblər ona işgəncə,
Yenidən baxsın qoy bu işə Gəncə.
İlkinin anası edirdi üsyan,
Günahsız yatır o, deyirdi bu an.
Heç zaman olammaz İlkinim  qatil,
Millətim,mən bunu deyirəm ki, bil.
Əminəm, İlkinim heç belə etməz,
Qatilin yoluyla heç zaman getməz.
Şəriflə Aynurə ağlayırdı qan,
Deyirdi qoy duysun bu Azərbaycan.
Bu korpə Nərminin nədir günahı?
Qoy tutsun qatili bizlərin ahı,
İlkindir bu qatil, İlkindir qatil!
Ay elim,ay obam, bunu eşit, bil.
Yoxmu ürəyində sevgi, məhəbbət,
Bu ürək daş olub yəqin ki, əlbət.
Qatil ürəyində axan qan deyil.
Zəhərdir qanı da sanki elə bil.
Ürəyi daş olub,sevgisi zəhər,
Həyatımı etdi ölümdən betər.
Ömürlük yaradır bu kürəyimdə,
İnsafı olmayıb heç ürəyində.
Çəksin cəzasını layiqi qədər,
Omürlük bəxş etdi o, mənə kədər.

Yandırır balamın ölümü məni,
Lənətə gələsən, ay qatil səni!
Məni ovundura biləmməz heç kəs,
Nərminlə alırdım həmişə nəfəs.
Mənim nəfəsimi əlimdən aldı,
Bizləri ölümcül günlərə saldı.
Soyuq məzardadır mənim Nərminim,
Dövlətimdən başqa yoxdu heç kimim.
Ürəyim dolubdu nufrətlə, kinlə,
Dövlət çəkəcəkdi hesab İlkinlə.

***

Qonşular oldular qanlı bir düşmən,
Sanki dost deyildi elə bil dünən...
Kəndin üzərinə çökmüşdü kədər,
Bəxtinə yazılmış onların qədər.
Həyat öz yoluyla davam edirdi,
İnsanlar yığılıb toya gedirdi.
Vüqargil həyətdə çadır qurmuşdu,
Vüqar evliliyə möhür vurmuşdu.
Çox gözəl, maraqlı bur toy gedirdi,
Günel həm sevinir, həm rəqs edirdi.

## MÜNDƏRİCAT

Sözün qadın taleyi, yaxud ruhdan doğan poeziya .........3
Ali Baş Komandan deyir ..........12
Qələbə hissi ..........13
Azərbaycan ..........14
Zəfərdir, bu dadın adı ..........15
Qələbə budu ..........16
Şəhidlər ..........17
Zəfər bayramı ..........18
Qələbə sevinci ..........19
Qələbə sevinci yaşadıq ..........20
Şəhidlər seçilib ..........21
Məzar qismət olmadı ..........22
Şəhidlər ..........23
Xatirələrim ..........24
Qoyma kül etsin ..........25
Bir güldür qadın ..........26
Qadınlar ..........27
Qadındır, qadın ..........28
Qadın ..........29
Qadını anlamaq niyə çətindir ..........30
Əlindən tuta biləydim ..........31
Eşq sarayı ..........32
Axı siz anasız ..........33
Ömür necə keçir ..........34

Yüz yaşa ....................................................35
Ömür versin ....................................................36
Elşəni oyat ....................................................37
Daşa yazılır adın ....................................................38
Nə yaxşı varsan ....................................................39
Halaldı Tovuzum ....................................................40
Şəhid oldunuz ....................................................41
Aç gözlərini, aç ....................................................42
Anlamasan ....................................................43
Neynirəm, oğlum ....................................................44
Buraxma əlimi ....................................................45
Özünü gəzirəm ....................................................46
Nəyinə gərək ....................................................47
Payız ....................................................48
Həmin adamsan ....................................................49
Eşşəkdən at olmaz ....................................................50
Onda olardı ....................................................51
Müəllim ....................................................52
Müəllim günü ....................................................53
Məktəb illəri ....................................................54
İlk zəngin səsi ....................................................55
Son zəngdir ....................................................56
Şəhid atası ....................................................57
Sözün bitdiyi an ....................................................58
Şəhidin var ....................................................59
Şəhidlər ölməyəcək ....................................................60

Zəfər bayramı ........................................................61
Üz tutaram yenə yara ..............................................62
Qayıda biləydim......................................................63
Bu dünya fanidir ....................................................64
Qəlbi kor olan ........................................................65
Hardasan həyatım...................................................66
Bəxtimi yazan mələklər..........................................67
Darıxdım ................................................................68
Çevrilə biləydim.....................................................69
İsmayıl .................................................................70
Dünya əbədidir.......................................................71
Geri dönməyir ........................................................72
Sevsəydin bilərdin ..................................................73
Vədəsiz getmə.........................................................74
Sevgi yağışı.............................................................75
Namə yaz.................................................................76
Sevirəm söyləyir.....................................................77
Qoymayın qızları darda..........................................78
Qorxuram gəlməzsən ..............................................79
Yazın özümə............................................................80
Mən onu çox sevirəm ..............................................81
Səs verin səsimə.......................................................82
Hardasan ömrüm, günüm.........................................83
Dünyaya gəlmişəm ..................................................84
Ömür hara tələsirsən ................................................85
Neynirəm, a dünya ..................................................86

Üzük tax ......................................................................87
Ana ..............................................................................88
Ürəyimdə axtar ..........................................................89
Mənimtək sevəmməz ..................................................90
Qədrini bilsin ...............................................................91
Niyə sevmirsən.............................................................92
Minib boynuma ...........................................................93
Çünki sevirəm səni ......................................................94
Mübarək olsun..............................................................95
Ayla balam ...................................................................96
Yağma, ey yağış ............................................................97
Olmasaydı bu dərd, azar...............................................98
Odlanaram ...................................................................99
Ana harayı..................................................................100
Qış gəlibdi ..................................................................101
Heç kimə qalmayır.....................................................102
Olam gözün.................................................................103
Sənsiz ..........................................................................104
Sus, danışma ...............................................................105
Tabutda gedən sən olma ............................................106
Yaxşı ki, varam............................................................107
Sən dön özümə ...........................................................108
Əzrayıl ........................................................................109
Sevgi sarayı ................................................................110
Məhəbbətdir adı .........................................................111
Qızılgül .......................................................................112

Demərəm dön geri ........ 113
Qaça bilməzsən ........ 114
Qoruyun məhəbbəti ........ 115
Son zəngdir ........ 116
İnsanlar cürbəcür olur ........ 117
İki il keçdi ........ 118
Son aqibətin ........ 119
Səni yüz yaşa ........ 120
Axır qəmin olsun ........ 121
Sənin günündür ........ 122
Fərqanə qızım ........ 123
Nə yaxşı ki, varımsan ........ 124
Oğlum ........ 125
Zabitin yaşı ........ 126
Dünya fanidir ........ 127
İncitmə məni ........ 128
Səninlə gözəldir ........ 129
Otuz beş il ötür ........ 130
Unuda bilməzsən ........ 131
Hökümə ........ 132
Ölümün dadı ........ 133
Yandırır məni ........ 134
Xədicə, Əli ........ 135
Qəsdinizə kimlər durdu ........ 136
Sənlik deyil ölüm ........ 137
Fani dünya ........ 138

Ver özümə ....................................................139
Anan ölməzdi ....................................................140
Sirli gecə ....................................................141
Qarın ləzzəti....................................................142
İnsan ömrü ....................................................143
Bir dəfə verilir....................................................144
Sevgidir adı ....................................................145
Yalan....................................................146
Qıfıl asılır....................................................147
Danma məhəbbəti....................................................148
Qonağım olarmı ....................................................149
Dəyməyin qocalara ....................................................150
Boğaraq öldürdün ....................................................151
Dəyməyin xətrinə....................................................152
Payız....................................................153
Ən gözəl yerdir vətən....................................................154
Yaxşı ki, varımsan ....................................................155
Ömür gedir....................................................156
Ölməmişəm mənə inan ....................................................157
Biləmmədi ....................................................158
Qızım....................................................159
Axı hardan biləsən ki....................................................160
Qəfil gələn qonaq ....................................................161
Ürəyim bağlıdır sənə ....................................................162
Darıxdım, ana ....................................................163
Qəlbimə yazdım ....................................................164

Sevən ürəklər ........................................ 165
Kişi nə edəcək ........................................ 166
Kimə inanım ........................................ 167
Axı mən kiməm ........................................ 168
Sirli ölüm ........................................ 169

***Qeyd üçün:***

.................................................................................................

.................................................................................................

.................................................................................................

.................................................................................................

.................................................................................................

.................................................................................................

.................................................................................................

.................................................................................................

.................................................................................................

.................................................................................................

.................................................................................................

.................................................................................................

.................................................................................................

.................................................................................................

.................................................................................................

.................................................................................................

.................................................................................................

Rəna Qurbanlı Qılıcova

# Sətirlərə sığınan hisslər

İMZA
NƏŞRLƏR EVİ

Direktor: Səbuhi Aslan

Dizayner: Nigar Sadıqova

Texniki redaktor: Hüseyn Məmmədov

Çapa imzalanmışdır: 04.12.2026
Ofset çapı. Əla növ kağız
Tiraj: 100
Ünvan: Bakı, Mətbuat prospekti 529-cu məhəllə
Telefon: (012) 538-18-87, (050) 263-16-16
email: imza_nesrler_evi@mail.ru